Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

20 FEVRAL 2020-ci il

№ 31 (4162)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# «ERMƏNİSTANDA PAŞİNYANIN DƏSTƏKÇİLƏRİ ELƏ DANIŞIR Kİ, SANKİ MÜNHENDƏ DİVARA SIXILAN ƏLİYEV İDİ»

■ səh. 9 ■

Azərbaycan Prezidenti Münhen konfransında Cənub Qaz Dəhlizini yeni strateji tezislə gündəmə gətirdi

■ səh. 4 ■

Prezident Bakının sərnişin nəqliyyatı sektorunun inkişaf və problemlər mənzərəsini tam təsvir etdi

■ səh. 3 ■

Rusiya XİN-də erməni diplomatlar bir nəfər azaldı, əvəzində Venesuela kimi ölkə ilə Azərbaycanın arasını soyutmaq ehtimalı yarandı...

■ səh. 4 ■

Buraxılmış parlamentin tərkibi 100 faiz yenilənsəydi... Fəzail Ağamalı hansı təhlükədən danışır...

■ səh. 7 ■

Paşinyanla ordunun Baş Qərargah rəisinin də döyüşü başlayır

■ səh. 10 ■

Ərdoğan-Putin görüşündə nəticə olmasa, İdlibdə iki dövlətin müharibəsi başlayacaq...

■ səh. 12 ■

Erməni saytlarında gənc bakılı qızların erotik reklam şəkilləri - Bakıda yaşayıram, adım Eva, 28 yaş, kişi axtarıram... Mənəvi terrorun qarşısını kim almalıdır...

■ səh. 11 ■




■ səh. 5 ■

## Mütəllibovdan müsahibə götürdüyünü iddia edən erməni jurnalist Çingiz Mustafayevin adı üzərindən yeni Xocalı təxribatlarına başladı - Çingiz Mustafayev Fondu niyə susur...



Prezident parkovka məsələsində əhalinin xeyrinə alternativlər yaratmaq zərurətindən danışdı, Vüsal Kərimli Bakıda fərqli tariflər üzrə zonalardan...

■ səh. 3 ■



Dağlıq Qarabağın tarixində 1921-ci ilin iyul prosesləri - Paşinyanın ənənəvi erməni yalanları və Əliyevin əsaslı faktları - tarix ittiham edir

■ səh. 6 ■

Ermənistan Avropa Məhkəməsinin son qərarına təzyiqlərə başladı - Məhkəmə Ramil Səfərovun işi barədə hansı qərarı verəcək...

■ səh. 8 ■

■ səh. 5 ■

Berlindəki məşhur Brandenburq qapıları yanında Ümumavropa Qarabağ mitinqi Azərbaycana nə verə biləcək?



■ səh. 7 ■

Deputatların maaş məsələsi - hədsiz yüksək maaş cəmiyyətdə qıcıq, deputatlığa ifrat meyl mənbəyi kimi... Özünü doğrultmayanlar da yüksək maaş alıb getdilər...



■ səh. 13 ■

Cinayətkarlığın xəbərdarlığında ictimaiyyətin rolu



■ səh. 14 ■

2019-cu ildə bələdiyyələrdən şikayətlər fantastik dərəcədə çoxalıb - 46 faiz...



■ səh. 15 ■

Cəmiyyətimizdə test-Boloniya təhsil sistemi ilə bağlı yenidən əks müzakirələr başlayıb





# Azərbaycan Prezidenti İlham Əliyevin İtaliyaya rəsmi səfəri başladı

**Azərbaycan Respublikasının Prezident İlham Əliyev fevralın 19-da İtaliya Respublikasına dövlət səfərinə gedib.**

Romanın "Fiumicino" Beynəlxalq Hava Limanında dövlət başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı İtaliya Xarici İşlər Nazirliyinin Dövlət Protokol İdarəsinin rəisi İniqo Lambertini, bu ölkənin Azərbaycandakı səfiri Auqusto Massari və digər rəsmi şəxslər qarşılayıblar.

Dövlət başçısı fevralın 19-da Romadakı məşhur "Villa Borghese" parkında dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin abidəsini ziyarət edib.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva abidənin önünə gül dəstələri qoyublar.

Qeyd edək ki, bu abidə "Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 dekabr tarixli Sərəncamına əsasən ucaldılıb. Həmin Sərəncama əsasən, Nizami Gəncəvinin yubileyinə həsr edilmiş silsilə tədbirlər çərçivəsində Heydər Əliyev Fondunun dəstəyilə 2012-ci ilin aprelində abidənin açılışı olub.

## ABŞ-ın Los Anceles şəhər radiosu Azərbaycan barədə geniş proqram yayımladı

**Azərbaycanın Los Ancelesdəki Baş Konsulluğundan "Bakı-Xəbər"ə verilən xəbərə görə, Azərbaycanın Los Anceles şəhərindəki baş konsulu, Los Anceles Konsulluq Korpusunun duayeni (sədri) Nəsimi Ağayev ABŞ-ın ən böyük farsdilli radiosu olan, Los Ancelesdə fəaliyyət göstərən KIRN radiosunun aparıcısı Debbi Amininin dəvətilə radionun "One World, One Community" (Bir Dünya, Bir İcma) proqramının qonağı olub və Azərbaycanla bağlı geniş müsahibə verib. Proqram, həmçinin, canlı şəkildə kanalın rəsmi sosial şəbəkə profillərində video formatında da yayımlanıb.**

Müsahibədə baş konsul N.Ağayev ölkəmizin müstəqillik tarixi haqqında ətraflı danışaraq, 1918-ci ildə Azərbaycan xalqının müsəlman dünyasında ilk dünyəvi və demokratik respublika yaratdığını, eləcə də qadınlara səsvermə hüququ verən ilk müsəlman ölkəsi kimi tarixə düşdüyünü bildirib.

Azərbaycanda mövcud olan dinlərarası harmoniya, qədim tolerantlıq və multikulturalizm ənənələri haqda ətraflı məlumat verən baş konsul ölkəmizdə müsəlmanlarla xristian, yəhudi, bəhai və digər dinlərə mənsub insanların qarşılıqlı anlaşma, mehriban qonşuluq və əminamanlıq şəraitində yaşadıqlarını diqqətə çatdırıb.

Azərbaycanda neft sənayesinin tarixi inkişafı haqda danışan baş konsul Azərbaycan neftinin faşist Almaniyası üzərində qələbənin əldə olunmasında oynadığı mühüm rolu qeyd edib. Eyni zamanda, N.Ağayev İkinci Dünya müharibəsində Holokostdan qaçan minlərlə yəhudiyə Azərbaycanda sığınacaq verildiyini vurğulayıb.

Baş konsul daha sonra Azərbaycanın zəngin mədəniyyəti, mətbəxi, əsrarəngiz təbiəti, turizm imkanları, Bakı şəhərinin görməli yerləri, həmçinin Baş Konsulluğun Los Ancelesdə keçirdiyi tədbirlər və digər mövzular barədə tamaşaçıları məlumatlandırıb. Müsahibə zamanı "Arşın mal alan" operettasından hissələr, eləcə də Azərbaycanın turizm imkanlarına dair fars dilində hazırlanmış çarx səsləndirilib.

Qeyd edək ki, Los Ancelesdə və ümumilikdə Kaliforniya ştatının cənubunda sayı 500 mini keçən İran icması mövcuddur ki, bu da ABŞ-da ən çox iranlının yaşadığı bölgə hesab olunur.

## ÜST koronavirusun insandan insana keçməsi statistikasını açıqlayıb

**Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) yeni növ COVID-19 koronavirusunun insandan insana keçməsi üzrə 100-ə yaxın fakt qeydə alıb.**

"Trend"in "RİA Novost"ya istinadən verdiyi məlumata görə, bunu ÜST-nın baş direktoru Tedros Adhanom Qebreyesus deyib. A.Qebreyesus bildirib: "Hazırda Çindən kənarda, 12 ölkədə COVID-19 koronavirusunun insandan insana keçməsi üzrə 92 fakt qeydə alınıb. Xəstəliyin ciddiliyini və ya ölüm səviyyəsini müqayisə etmək üçün Çindən kənarda qeydə alınan hallar üzrə kifayət qədər məlumatımız yoxdur".

Onun sözlərinə görə, ÜST hər bir xəstəlik halının inkişafını daha yaxşı başa düşmək üçün yoluxmaların qeydə alındığı dövlətlərlə birlikdə vəziyyəti izləyir.

Eyni zamanda, ÜST "Diamond Princess" kruiz laynerində yoluxanlar istisna olmaqla hələki virusun insandan insana davamlı keçməsi faktını qeydə almayıb. Bildirilir ki, kruiz laynerində yoluxan insanlarda COVID-19 koronavirusunun yüngül forması müəyyən edilib, sərnişinlərin əksəriyyəti isə sağlamdır.

**Məhəmmədəli Qəribli və Vidadi Ordahallı dostları Ramin Fərəcova atası Abbasqulu kişinin vəfatı ilə bağlı başsağlığı verir, mərhuma Allahdan rəhmət diləyirlər. Allah rəhmət eləsin!**

# Əliyev-Paşinyan debatına ABŞ-dan reaksiyalar...

## Piter Teys və Metyu Brayza...

**Nikol Paşinyan üçün ən yaxşı resept Ermənistan qoşunlarını Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarmaqdır. Bunu "Trend"ə amerikalı ekspert Piter Teys Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələrini şərh edərkən deyib.**

O bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyev parlaq çıxış etdi: "Bu çıxışda ermənilərin tarixi manipulyasiyaları və son otuz il ərzində Azərbaycana qarşı dezinformasiya kampaniyası ifşa olunub. Prezident İlham Əliyev yüksək ixtisaslı, unikal demokratik dövlət xadimidir. Çiçəklənmə, multikulturalizm və heyrətamiz tarixi irs Azərbaycanı hər kəsi ruhlandıran müstəsna məkana çevirir".





© Trend

P.Teys qeyd edib ki, N.Paşinyan qarşısıalınmaz korrupsiyadan, mütəşəkkil cinayətkarlıqdan, iqtisadi azalmadan və yüksək işsizlik səviyyəsindən əziyyət çəkən ölkəni təmsil edir: "Bu cür qaranlıq reallıqlar Ermənistanı Avropanın ən təhlükəli yerlərindən biri, eyni zamanda Cənubi Qafqazda qeyri-sabitliyin mənbəyi edir".

Ekspert əlavə edib ki, mövcud status-kvo dəyişdirilməlidir və BMT Təhlükəsizlik Şurası Ermənistanın Azərbaycana qarşı təcavüzünün humanitar və ekoloji nəticələrini aradan qaldırmalıdır:

"Ermənistan hökumətinin üzvlərinə qarşı iqtisadi və siyasi sanksiyalar tətbiq edilməlidir. Yerevan danışıqlarda ciddi şəkildə iştirak edənədək Ermənistana beynəlxalq borcların və qrantların verilməsi dayandırılmalıdır. Ermənistanın Azərbaycana qarşı qlobal miqyasda dezinformasiya kampaniyası və siyasi manevrlərinə son qoyulmalıdır, əks halda Avropa təhlükəsizlik sahəsində ciddi problemlərlə üz-üzə qalacaq. Paşinyan üçün ən yaxşı resept Ermənistan qoşunlarını Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarmaq və səylərini ölkənin iqtisadiyyatının möhkəmlənməsinə yönəltməkdir".

ATƏT Minsk qrupu Dağlıq Qarabağ münaqişəsində yalnız iki tərəfi tanıyıb - Ermənistan və Azərbaycanı. Bunu isə agentliyə ATƏT Minsk Qrupunun ABŞ-dan sabiq həmsədri Metyu Brayza Ermənistanın baş naziri Nikol Paşinyanın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələrində açıqlamalarını şərh edərkən deyib.

O bildirib ki, Minsk qrupunun danışıqlarında yalnız Bakı və Yerevanın nümayəndələri iştirak ediblər: "Mən həmsədr olduğum müddətdə erməni tərəfi qondarma Dağlıq Qarabağ "nümayəndələri"nin iştirak etməsini istəyirdi, amma hər üç həmsədr bu müraciətləri qəbul etmirdi. Həmsədrlərin müqavimətindən sonra Yerevan bu tələbi irəli sürməyib".

M.Brayza hesab edir ki, bu cür bəyanatlarla Ermənistan hökuməti Azərbaycanı qıcıqlandırmadan və danışıqlar masasında yaranan müsbət impulsu zərbə altına qoymadan Qarabağ erməniləri üçün "işarə qoymaq" istəyir.

# MSK Mingəçevir seçki dairəsi üzrə 3, Ağdaş seçki dairəsi üzrə 2 məntəqədə səsvermənin nəticələrini ləğv etdi

**Mərkəzi Seçki Komissiyası 47 saylı Mingəçevir şəhər seçki dairəsi ilə bağlı bir neçə məntəqədə seçkinin nəticələrini ləğv edib.**

"Trend"in məlumatına görə, MSK üzvü Baxşeyş Əsgərov bildirib ki, Mingəçevir seçki dairəsi üzrə daxil olan müraciətdə bir sıra seçki məntəqələrində pozuntuların olduğu qeyd olunub və səsvermənin nəticələrinin ləğv edilməsi xahiş edilib.

B.Əsgərov bildirib ki, araşdırma zamanı 9, 17 və 21 saylı seçki məntəqələrində seçicilərin iradəsinə təsir edəcək hallar aşkar edilib. O, həmin seçki məntəqələrində səsvermənin nəticəsinin ləğv edilməsini təklif edib. Təklif səsə qoyularaq qəbul edilib.

Mərkəzi Seçki Komissiyası 90 saylı Ağdaş seçki dairəsi üzrə isə iki məntəqədə seçkilərin nəticələrini ləğv edib.

MSK üzvü Qabil Orucov bildirib ki, Ağdaş seçki dairəsi üzrə daxil olan müraciətdə həmin dairə üzrə səsvermə zamanı pozuntuların olduğu qeyd olunub və səsvermənin nəticələrinin ləğv edilməsi xahiş edilib.

Q.Orucovun sözlərinə əsasən, araşdırma zamanı yalnız 6 və 7 saylı məntəqələrdə seçicilərin iradəsini müəyyən etməyə imkan verməyən hallar qeyd olunub. Q.Orucov həmin seçki məntəqələrində səsvermənin nəticələrinin etibarsız hesab edilməsini təklif edib. Təklif səsə qoyularaq qəbul edilib.

**"Biz burada da hər şeyə ədalətli yanaşmalıyıq. Parkinq imkanları olmalıdır ki, sonra biz vətəndaşlardan bu qaydalara riayət etmələrini tələb edək". Bunu Prezident İlham Əliyev Bakı Nəqliyyat Agentliyinin İdarə Heyətinin sədri Vüsal Kərimlini qəbul edərkən deyib.**

# Prezident parkovka məsələsində əhalinin xeyrinə alternativlər yaratmaq zərurətindən danışdı, Vüsal Kərimli Bakıda fərqli tariflər üzrə zonalardan...



***Azər Allahverənov:** "Avtomobili saxlamaq üçün yer varsa, bu o demək deyil ki, parkovka mütləq ödənişli olmalıdır"*

Prezident bildirib ki, bəzi hallarda sürücülər parkinq qaydalarını kobudcasına pozurlar: "Parkinq olan yerdə maşınları münasib olmayan yerlərdə saxlayıb, həm piyadalara maneə törədirlər, həm də nəqliyyata problem yaradırlar. Ancaq kifayət qədər böyük imkanlar, yeni parkinq yerləri olmalıdır ki, biz sürücülərə bu tələbləri irəli sürək. Burada da heç bir qanun pozuntusu olmamalıdır. Qanun qarşısında hamı bərabərdir. Hamı bilməlidir ki, şəhər nəqliyyatı həm insanların rahatlığıdır, həm bizim sağlamlığımızdır, həm də havanın təmiz olmasıdır. Yenə də deyirəm, havanı ən çox çirkləndirən nəqliyyat vasitələridir, xüsusilə tıxac olan yerdə. Tıxacın olmaması isə sizin əsas vəzifənizdir. Siz bundan sonra da aidiyyəti dövlət qurumları ilə bu istiqamətdə fəal olmalısınız. Ona görə parkinqlə bağlı soruşmaq istəyirəm. Vəziyyət necədir və bu il hansı addımlar gözlənir?".

Vüsal Kərimli isə parkinq məsələsində fərqli tariflərin tətbiq olunmasını məqsədəuyğun hesab etdi: "Bu il biz parkinqlə əlaqədar bu istiqamətdə fəaliyyət göstərən beynəlxalq məsləhət xidmətlərini cəlb etmişik ki, Bakı şəhərində parkinq məsələsi nəinki infrastruktur cəhətdən, eyni zamanda, iqtisadi baxımdan analiz olunsun. Çünki şəhər zonalara bölünməlidir. Bunun gecə vaxtları var. Şəhərdə tıxac olan vaxtlarda açıq yolları analiz edib harada neçə yeraltı parkinqmi, küçə parkinqimi, yoxsa, xüsusilə molların və insanların yaşadığı əsas yerlərdə modul parkinqlər tikilməlidir və onların tarifləri olmalıdır. Şəhər mərkəzinin tarifi fərqli qiymətdə olmalıdır. "B" zonası fərqli qiymətdə olmalıdır".

Maraqlıdır, bəs ekspertlər bütün bunları necə dəyərləndirir və optimal həll yolunu nədə görürlər?

*"Bu məsələ ilə bağlı araşdırma apardıqda, təkliflər irəli sürüldükdə müvafiq qurumların, vətəndaşların..."*

Məsələyə münasibət bildirən nəqliyyat sahəsi üzrə ekspert Azər Allahverənovun fikrincə, avtomobillərin parklanması zamanı fərqli tariflər tətbiq edilərkən bütün tərəflərin maraqları nəzərə alınmalıdır: "Əvvəla Prezident İlham Əliyev bununla bağlı çox vacib məqamlara toxundu. Ərazidə avtomobilin park edilməsi üçün yer yoxdursa, o zaman sürücü məcbur olur qanunsuz olaraq haradasa maşını saxlayır. Parkovka yeri olmadığından, insanlar inzibati xətaya yol verirlər. Bu da nəticə etibarilə sonradan onlara problem yaradır. Yəni avtomobil sahibləri cərimələnir və bu, narazılıqlara yol açır. Ona görə də avtomobillərin park edilməsi üçün xüsusi yerlər olmalıdır. Burada söhbət təkcə ödənişli parklardan getmir. Söhbət həm də ödənişsiz parkovka yerlərinin yaradılmasından kedir. Avtomobili saxlamaq üçün yer varsa, bu o demək deyil ki, parkovka mütləq ödənişli olmalıdır. Ona görə də bütün bu məsələlərə diqqət edilməlidir. Avtomobillərin park edilməsi üçün pulsuz yerlər də olmalıdır. Avtomobil sahiblərinin bununla bağlı alternativləri olmalıdır. Problemin həllinə kompleks yanaşma ortaya qoyulmalıdır. Beynəlxalq təcrübədə avtomobillərin park edilməsi ilə bağlı fərqli tariflər var, amma bu o demək deyil ki, bunu olduğu kimi Bakıda da tətbiq etmək olar. Bu məsələ ilə bağlı araşdırma apardıqda, təkliflər irəli sürüldükdə müvafiq qurumların, vətəndaşların, ictimai təşkilatların rəyləri və maraqları nəzərə alınmalıdır. Ondan sonra tariflərin tətbiqi və icra mexanizmi barədə düşünmək olar".

***Vidadi ORDAHALLI***

---

**"Əsas məsələ insanların yola sərf edəcəyi vaxtın azaldılmasıdır. Bununla bərabər, bəlkə də bundan daha vacib məsələ təhlükəsizlikdir, sürücülərin hazırlanmasıdır, onların tibbi müayinəsi və iş qrafikidir". Bunu Prezident İlham Əliyev Bakı Nəqliyyat Agentliyinin İdarə Heyətinin sədri Vüsal Kərimlini qəbul edərkən deyib.**

# Prezident Bakının sərnişin nəqliyyatı sektorunun inkişaf və problemlər mənzərəsini tam təsvir etdi




***Elməddin Muradlı:** "Bəzi şirkətlər sürücüləri, sözün həqiqi mənasında, istismar edir və onlar nəinki 8 saat, 12-14 saat işlədilir"*

Prezident bildirib ki, heç kim gündə 8 saatdan artıq işləməməlidir: "Əgər kimsə işçiləri qanunsuz işlədirsə, istismar edirsə, cəzasını alacaq. Əlbəttə, əminəm ki, Bakı Nəqliyyat Agentliyində çalışan sürücülər bu meyarlara riayət edirlər. İnsanların rahatlığı da vacib məsələdir. İnsanlar müasir avtobuslarda özlərini çox rahat hiss edirlər.

Prinsip etibarilə elə bir avtobus xidməti olmalıdır ki, hətta şəxsi nəqliyyat vasitəsi olan insanlar da şəhər nəqliyyatı ilə hərəkət etməyə üstünlük versinlər. Hesab edirəm ki, biz bu hədəfə yaxınlaşırıq. Əlbəttə, növbəti illərdə avtobus parkının təzələnməsi istiqamətində əlavə tədbirlər görüləcək və eyni zamanda, şadam ki, hazırda ölkəmizə gətirilən yeni avtobuslar ekoloji cəhətdən çox təmizdir".

Ölkə başçısının fikrincə, əldə edilmiş nailiyyətlərlə kifayətlənmək olmaz, hələ görüləsi işlər çoxdur: "Mənim göstərişimlə hər il dövlət büdcəsindən kifayət qədər böyük vəsait ayrılır və hər il orta hesabla 300 avtobus Bakı Nəqliyyat Agentliyinin xətti ilə şəhərimizə gətirilir. Beləliklə, biz avtobus parkını tədricən müasirləşdiririk. Eyni zamanda, mənim özəl şirkətlərə də tövsiyəm ondan ibarət idi ki, onlar da öz avtobus parklarına yenidən baxsınlar. Görürəm ki, bəzi şirkətlər bu istiqamətdə önəmli addımlar atırlar. Avtobusların ölkəmizə gətirilməsi, əlbəttə ki, işlərin bir hissəsidir. Bütün yol-nəqliyyat infrastrukturu müasir tələblərə cavab verməlidir".

Görünən odur ki, ölkə başçısı sərnişin nəqliyyatı sektorunun inkişaf və problemləri ilə bağlı bütün məqamlara toxundu. Bunların həll yollarını göstərdi.

*"Ancaq normal maaş və iş rejimi olsa, sözügedən problemlər həllini tapacaq"*

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən nəqliyyat sahəsi üzrə ekspert Elməddin Muradlının sözlərinə görə, Bakı Nəqliyyat Agentliyi xeyli müddətdir bu məsələ ilə bağlı təkliflər verir: "Sürücülərin iş və istirahət rejiminə əməl olunmalıdır. Yəni 8 saatdan artıq sürücü avtobusu idarə etməməlidir. Ancaq gərək bunda daşıyıcı şirkətlərin özlərinin marağı olsun. Bəzi şirkətlər sürücüləri, sözün həqiqi mənasında, istismar edir. Sürücülər nəinki 8 saat, 12-14 saat işlədilir. Bu da müəyyən problemlərə səbəb olur. İş və istirahət rejimi pozulanda sürücülər gərgin və aqressiv olurlar. O baxımdan, bu məsələyə çox ciddi yanaşmaq lazımdır. Bunun üçün daşıyıcı şirkətlər qarşısında məsələ qoyulmalıdır və onların buna nə dərəcədə əməl etməsinə nəzarət olmalıdır. Yalnız o halda problemlər aradan qaldırıla bilər. Təəssüf ki, bu problemlər hələ də qalmaqdadır. Problem qaldıqca da öz mənfi fəsadlarını göstərir. Nəticədə qəza risqi artır, sərnişin davaları yüksəlir. Bütün bunlar da ağır iş rejimi ilə bağlıdır. Sürücülər bəzən sərnişinlərə 30-40 qəpik gözü ilə baxırlar. Yarışırlar bir-birilə ki, daha çox sərnişin götürsünlər. Bu da ağır fəsadlara gətirib çıxarır. Ancaq normal maaş və iş rejimi olsa, sözügedən problemlər həllini tapacaq".

***Vidadi ORDAHALLI***

# Azərbaycan Prezidenti Münhen konfransında Cənub Qaz Dəhlizini yeni strateji tezislə gündəmə gətirdi

**Bizimlə Cənub Qaz Dəhlizi üzərində işləyən bəzi ölkələrin tarixdə ilk dəfə alternativ təchizat mənbələrinə malik olmaq imkanı olacaq. Bunu Prezident İlham Əliyev Münhen Təhlükəsizlik Konfransı çərçivəsində "Enerji təhlükəsizliyi" mövzusunda keçirilən dəyirmi masada çıxışı zamanı deyib.**

## *"CQD layihəsi Avropanın enerji təminatında çox ciddi faktora çevrilməkdədir"*

Dövlət başçısının sözlərinə görə, ötən il ölkəmiz və Avropanın enerji təhlükəsizliyi üçün əlamətdar il olub:"Çünki biz tərəfdaşlarımızla birlikdə artıq Türkiyə-Yunanıstan sərhədinə çatan, əsas qaz kəməri olan TANAP-ı uğurla başa çatdırdıq. Bu o deməkdir ki, Cənub Qaz Dəhlizinin dörd seqmentindən üçü artıq uğurla tamamlanıb. Sonuncu seqmentə gəlincə, TAP layihəsi bu ilin sonunda tamamlanacaq. Beləliklə, 3,5 min kilometr uzunluğunda inteqrasiya olunmuş kəmər sistemi artıq istismara veriləcək. Bu, regionumuzda əsas infrastruktur layihələrindən biridir. Bu, əlbəttə ki, bizim üçün, tərəfdaşlarımız üçün, Avropanın enerji təhlükəsizliyi üçün çox vacibdir". Ölkə başçısı onu da qeyd edib ki, bu gün biz gələcək layihələrimizlə bağlı yeni ölkələrlə işləyirik: "Bosniya və Herseqovina, Monteneqro və Xorvatiya - bu üç ölkənin ərazisindən keçən, xüsusilə İonik-Adriatik kəmərinin tikintisini nəzərdə tutan ikinci fazada layihəyə qoşulmaqla bağlı artıq bizimlə Anlaşma Memorandumu imzalayıblar. Əgər bu layihə də Avropa İttifaqının ümumi maraqlarına uyğun layihələr siyahısına daxil edilsə, onun həyata keçirilməsi daha sürətli olacaq. Bizimlə Cənub Qaz Dəhlizi üzərində işləyən bəzi ölkələrin tarixdə ilk dəfə alternativ təchizat mənbələrinə malik olmaq imkanı olacaq. Alternativ mənbə təkcə marşrut deyil. Çünki təhlükəsizlikdən danışanda biz mənbədən danışmalıyıq. Bizim timsalımızda Azərbaycan qazının Avropa bazarına, Türkiyə bazarına nəqli yeni mənbə və yeni marşrutdur".

Göründüyü kimi, Prezident İlham Əliyev sözügedən məqamları qeyd etməklə Cənub Qaz Dəhlizini yeni strateji tezislə gündəmə gətirdi. Çünki CQD sayəsində bəzi Avropa ölkələri alternativ təchizat mənbələrinə malik olacaqlar. Bu baxımdan sözügedən layihənin əhəmiyyətini ekspertlər necə dəyərləndirir? Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Fuad İbrahimovun sözlərinə görə, Balkan ölkələri CQD sayəsində alternativ enerji mənbələrinə sahib olacaqlar: "Bu həm Avropa, həm də sözügedən ölkələr üçün mühüm əhəmiyyət kəsb edir. Nəzərə almaq lazımdır ki, Şərqi və Cənubi Avropa ölkələrinin Rusiya qaz təchizatından asılılığı böyükdür. Rusiya və Qərb arasında siyasi münasibətlər gərginləşən kimi qaz məsələsi gündəmə gəlir. Qiymətlərə bağlı məsələ aktuallaşır. Zaman-zaman biz bunun şahidi olmuşuq. Hesab edirəm ki, CQD vasitəsilə bəzi Avropa ölkələri yeni enerji təchizatı mənbələrinə çıxış əldə edəcəklər. Bu da onlara yeni imkanlar yaradacaq. Düzdür, ilk mərhələdə Azərbaycanın Avropaya ötürəcəyi qazın həcmi o qədər də çox olmayacaq. Ancaq sonrakı mərhələdə bunun artacağı qaçılmazdır.

**Fuad İbrahimov:** *"Alternativ variantlar bir mənbədən asılılığı aradan qaldırır və bu da ölkələrin manevr imkanlarının artması deməkdir"*




Bunun Avropa üçün nə demək olduğunu təsəvvür etmək çətin deyil. Çünki alternativ variantlar bir mənbədən asılılığı aradan qaldırır və bu da ölkələrin manevr imkanlarının artması deməkdir. Ona görə də CQD layihəsi Avropanın enerji təminatında çox ciddi faktora çevrilməkdədir. Bunun sayəsində Avropa dayanıqlı enerji ilə təmin ediləcək. Nəzərə almaq lazımdır ki, bu layihə ən əlverişli, dayanıqlı və risqsiz layihədir".

**Vidadi ORDAHALLI**

# Rusiya XİN-də erməni diplomatlar bir nəfər azaldı, əvəzində Venesuela kimi ölkə ilə Azərbaycanın arasını soyutmaq ehtimalı yarandı...

**Rusiya Prezidenti Vladimir Putin bu ölkənin Venesuelada fövqəladə və səlahiyyətli səfirinin təyin edilməsi haqqında sərəncam imzalayıb. Vladimir Putinin fərmanına əsasən, Sergey Məlik-Bağdasarov Venesuelada Rusiyanın yeni səfiri olub.**

Rusiya Prezidentinin başqa bir sərəncamına əsasən Vladimir Zaemski Rusiyanın Venesueladakı səfiri vəzifəsindən azad edilib.

Qeyd edək ki, Sergey Məlik-Bağdasarov 1968-ci ildə Moskvada anadan olub. Erməni əsilli diplomat əvvəllər Rusiya Xarici İşlər Nazirliyinin Latın Amerikası şöbəsinin müdir müavini vəzifəsində çalışıb. Məlumdur ki, Venesuela ilə Azərbaycan arasında yaxın münasibətlər var. Həmin ölkənin Prezidentinin Azərbaycana səfəri reallaşıb. Müxtəlif beynəlxalq platformalarda əməkdaşlığımız mövcuddur. Qoşulmama Hərəkatına sədrliyi də Azərbaycan Venesueladan qəbul etdi. Rusiya ilə Venesuelanın münasibətləri normaldır. Maraqlıdır, erməni əsilli səfirin Venesuelaya təyinatı rəsmi Karakasla Azərbaycanın münasibətlərinə mənfi təsir göstərə bilərmi?

Politoloq Zamin Axundov qəzetimizə açıqlamasında bildirdi ki, diplomatik münasibətlərin qurulmasında səfirlərin rolu böyükdür: "Ancaq bu heç də o demək deyil ki, hansısa səfir təmsil olunduğu ölkə ilə bağlı münasibəti istənilən məcraya yönəldə bilər. Erməni əsilli səfir Rusiyanı təmsil edəcək. Səfirlər təmsil etdikləri ölkələrin təlimatına uyğun şəkildə fəaliyyət göstərirlər. Bu da onu deməyə əsas verir ki, erməni əsilli səfir daha çox Rusiyanın təlimatlarını yerinə yetirəcək. Rusiya ilə Venesuelanın münasibətləri çox yaxşıdır. Təsadüfi deyil ki, Maduroya qarşı qalxan kütləvi etirazların sakitləşməsi və onun hakimiyyətdə saxlanmasında Moskvanın əvəzsiz dəstəyi oldu. Latın Amerikası Azərbaycandan çox uzaqdadır.

**Zamin Axundov:** *"Erməni xislətini də nəzərə almalıyıq ki, haradasa ürək bulandırmağa cəhd ola bilər"*




Bizim onlarla Rusiya ilə münasibət kontekstindən kəsişən marağımız da yoxdur. Ancaq erməni xislətini də nəzərə almalıyıq ki, haradasa ürək bulandırmağa cəhd ola bilər. Venesuela-Azərbaycan münasibətlərinə xələl gətirə biləcək bir təhlükə görmürəm. Ancaq yenə də ehtiyatımızı əldən verməməliyik".

**Məhəmmədəli QƏRİBLİ**

**Ermənistan təbliğat maşını Münhen debatında Paşinyanın açıq məğlubiyyətinin əvəzini çıxmaq istəyir. Bunun üçün də müxtəlif yollara əl atırlar. Hətta üçüncü şəxslərin dilindən ağ yalanları belə tirajlamaqdan çəkinmirlər.**



# Mütəllibovdan müsahibə götürdüyünü iddia edən erməni jurnalist Çingiz Mustafayevin adı üzərindən yeni Xocalı təxribatlarına başladı - Çingiz Mustafayev Fondu niyə susur...

***Yadigar Məmmədli:** "Çingiz Mustafayevin çəkdiyi kadrlar ermənilərin vəhşiliyini tam sübuta yetirdiyi üçün, onlar daim belə hədyanlar uydururlar"*

Məlum olduğu kimi, Münhendəki debatda Paşinyan Ayaz Mütəllibovun Rusiya nəşrinə verdiyi müsahibəni əsas gətirərək, Xocalı hadisəsinin o vaxtkı müxalifət tərəfindən törədildiyini deyib. İlham Əliyev isə Ayaz Mütəllibovun hazırda sağ olduğunu qeyd edib və bildirib ki, eks-prezident belə bir müsahibəni vermədiyini dəfələrlə deyib.

Ermənistan mediası Ayaz Mütəllibovdan məlum müsahibəni götürdüyünü iddia edən Dana Mazalovanın mövqeyinə yer verib. Xanım jurnalist bildirib ki, Ayaz Mütəllibov həmin sözləri deyib, lakin onun əlində faktı sübut edən kaset qalmayıb. Maraqlıdır ki, Mazalova bu məsələdə Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülən Çingiz Mustafayevin də adını hallandırır. Jurnalist deyir ki, Çingizlə Kislovodskda görüşüblər: "Bir gün sonra mənim Ayaz Mütəllibovla müsahibəm olacaqdı. Mənim A.Mütəllibovla müsahibəm Çingizdən aldığım məlumatlar əsasında olacaqdı. Amma mən onun adını çəkmədim. Fikirləşdim ki, ziyan edər".

Mazalova bildirib ki, Çingizin çəkdiyi videolar arasında fərqləri görüb: "Ç.Mustafayev mənə fevral ayında çəkdiyi tam video görüntüləri göstərmişdi. Vurğulamaq istəyirəm ki, Çingiz orada ölənləri çəkən yeganə jurnalist idi. Lakin Çingizin mənə göstərdiyi kadrların indi Azərbaycan tərəfinin bütün dünyaya göstərdiyi və guya onun çəkdiyi deyilən videolarla heç bir əlaqəsi yox idi.

Mustafayevin çəkdiyi birinci videolarda, ümumiyyətlə, belə bir şeylər: nə çılpaq uşaqlar və qadınlar, nə də dəriləri soyulmuş kişilər yox idi. Ancaq onun mənə göstərdiyi ikinci video tam fərqliydi. Orada meyitlər üzərində zorakılıq əlamətləri vardı. İkinci videoda aydın görünür ki, orada Azərbaycan hərbçiləri sərbəst gəzişirlər".

Bununla jurnalist demək istəyir ki, Xocalı hadisəsində azərbaycanlıların əlinin olması ilə bağlı ilkin faktları o, Ç.Mustafayevdən alıb. Bir növ, demək istəyir ki, Ç.Mustafayev onu ideoloji silahlandırandan sonra Mütəllibovla müsahibəyə gedib. Məlumdur ki, erməni təbliğat maşını istənilən yalana əl atır. Hətta bunun üçün Azərbaycanda xüsusi hörmətə malik olan insanların da adından istifadə edir. Belələrindən biri də Ç.Mustafayevdir. Biz bildiyimizə görə, ölkəmizdə Ç.Mustafayevin adını daşıyan bir fond da fəaliyyət göstərir. Onun qardaşları aktiv fəaliyyətdədirlər. Onda isə niyə bu sərsəm iddiaları cavabsız qoyurlar?

Bizim bu məsələyə aydınlıq gətirmək üçün Ç.Mustafayevin adına Fondla əlaqə saxlamaq cəhdlərimiz alınmadı. İstənilən vaxt onların bu məsələyə mövqeyini dərc etməyə hazırıq.

Media eksperti Yadigar Məmmədli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Ç.Mustafayevin çəkdiyi kadrlar ermənilərin vəhşiliyini tam sübuta yetirdiyi üçün, onlar daim belə hədyanlar uydururlar: "Yaxşı olardı ki, Çingizin adının hallandığı bu məsələyə həm də onun adını daşıyan fonddan bir münasibət bildirilsin. Həmin kadrlar 30 il əvvəl çəkilib və dünya tərəfindən qəbul olunub. Onların yalanlarına çox da fikir verməməliyik. Təbii ki, Çingizin çəkdiklərinə şübhə toxumu səpmək onlara çox lazımdır. Amma biz yolumuza davam etməliyik. Ermənilərin belə hədyanalarını cavabsız da qoymamalıyıq. Xocalı faciəsi ermənilərin necə vəhşiliklər törətdiklərini sübut edən hadisədir. Bunun ən tutarlı sübutu Çingizin çəkdikləridir. Hədəfə məhz Çingizi almaq təsadüfi deyil".

*Məhəmmədəli QƏRİBLİ*

---

**"Fevralın 22-də Almaniyada Ümumavropa Qarabağ mitinqinin keçirilməsi təşəbbüsü Azərbaycan diaspor təşkilatlarının həqiqətlərimizin təbliği istiqamətində həyata keçirdiyi tədbirlərin, göstərdikləri səylərin tərkib hissəsidir.**



# Berlindəki məşhur Brandenburq qapıları yanında Ümumavropa Qarabağ mitinqi Azərbaycana nə verə biləcək?

***Vüqar Rəhimzadə:** "Ümumavropa Qarabağ mitinqi Azərbaycan həqiqətlərinin təbliğinə böyük dəstək olacaq"*

Reallıqlarımızın, xüsusilə 1988-ci ildə işğalçı Ermənistanın əsassız torpaq iddiası nəticəsində yaranan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyətinin dünya ictimaiyyətinə çatdırılması Azərbaycan diplomatiyasının qarşısında dayanan əsas vəzifələrdəndir. Bir mühüm məqamı da nəzərə alsaq ki, yaxın günlərdə XX əsrin ən dəhşətli faciəsi olan Xocalı soyqırımının 28-ci ildönümünü qeyd edəcəyik, belə tədbirlərin keçirilməsinin əhəmiyyəti daha aydın şəkildə dərk olunar". Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə KİV-ə açıqlamasında bildirib.

Azərbaycanın davamlı diplomatik uğurlarından bəhs edən V.Rəhimzadə qeyd edib ki, bu uğurlarımız dövlətimizin düşünülmüş və məqsədyönlü siyasətinin nəticəsidir. Möhtərəm Prezidentimiz İlham Əliyev daim çıxışlarında bir çağırışı edir ki, Dağlıq Qarabağ gündəlik işimiz olmalıdır. Münaqişə ilə bağlı bütün həqiqətlər, erməni yalanları faktlar əsasında dünya ictimaiyyətinin diqqətinə çatdırılmalıdır. Məhz uğurlu xarici siyasətin nəticəsidir ki, dünya dövlətlərinin, beynəlxalq təşkilatların qəbul etdikləri qərar və qətnamələrdə Azərbaycanın ədalətli mövqeyi dəstəklənir, Ermənistanın işğalçılıq siyasəti pislənilir. Bu günlərdə 56-cı Münhen Təhlükəsizlik Konfransı çərçivəsində dövlətimizin başçısı İlham Əliyevin və Ermənistanın baş naziri Nikol Paşinyanın iştirakı ilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələr də Ermənistanın bu günə qədər apardığı yalan təbliğatlara işıq salmaqla yanaşı, tarixin saxtakarlıq sevmədiyini, faktlara əsaslandığını bir daha işğalçı dövlətin rəhbərliyinə diktə etdi.

V.Rəhimzadə bildirib ki, təbliğatı real həqiqətlərə, tarixi faktlara beynəlxalq hüquq norma və prinsiplərinə əsaslanan Azərbaycan dövləti daim bu istiqamətdə səylərini gücləndirir, diplomatik mübarizədə qələbəni Dağlıq Qarabağ probleminin ədalətli həllində vacib amil kimi diqqətdə saxlayır: "Təbliğat işinin yüksək səviyyədə qurulmasında Azərbaycanın Birinci-vitse prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın, eyni zamanda, Heydər Əliyev Fondunun vitse-prezidenti, İslam Konfransı Gənclər Forumunun Mədəniyyətlərarası Dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın xidmətlərini yüksək qiymətləndiririk. Heydər Əliyev Fondu tərəfindən Dağlıq Qarabağ həqiqətləri ilə bağlı hazırlanan vəsaitlər-kitablar, albomlar, videodisklər dünyanın müxtəlif ölkələrində təbliğat vasitəsi kimi istifadə edilir. Bu vəsaitlər müxtəlif dillərdə tərcümə və təbliğ edilir. Heydər Əliyev Fondunun vitse-prezidenti, İslam Konfransı Gənclər Forumunun Mədəniyyətlərarası Dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə başlanmış "Xocalıya ədalət-Qarabağa azadlıq!" kampaniyası da təqdirəlayiq təşəbbüslərdəndir. Bu kampaniya çərçivəsində dünyanın müxtəlif ölkələrində silsilə tədbirlər keçirilir, ermənilərin vəhşilikləri faktlarla beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılır. Tədbirlərin əhəmiyyəti əldə olunan nəticələrdən də aydın görünür."

V.Rəhimzadə bildirib ki, Ümumdünya Qarabağ mitinqi də bu kimi tədbirlərin davamı olaraq Azərbaycan həqiqətlərinin, Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyətinin dünya ictimaiyyətinə çatdırılmasına böyük dəstək olacaq. Təbii ki, hər bir tədbir mahiyyəti baxımından xüsusi diqqət çəkir. Bu gün harada yaşamasından asılı olmayaraq bütün dünya azərbaycanlıları bir amal-azərbaycançılıq ideyası ətrafında sıx birləşərək 30 ildən artıq davam edən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə, dövlətimizin həyata keçirdiyi məqsədyönlü siyasətə, ölkəmizin ərazi bütövlüyünün bərpası istiqamətində atılan addımlara öz töhfəsini verməlidir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

# Dağlıq Qarabağın tarixində 1921-ci ilin iyul prosesləri - Paşinyanın ənənəvi erməni yalanları və Əliyevin əsaslı faktları - tarix ittiham edir

***Faiq Ələkbərli:*** *"1921-ci il iyulun 5-də yenə Rusiya Kommunist Partiyasının Qafqaz bürosu Dağlıq Qarabağa Azərbaycan SSR-nin tərkibində saxlanmaqla, inzibati mərkəzi Şuşa şəhəri olmaqla geniş vilayət muxtariyyəti statusu verdi"*

**Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir və Azərbaycan türklərinin qədim yaşayış məskənlərindən, böyük mədəni irs yaratdığı ərazilərimizdən biridir. Məlum olduğu kimi, Dağlıq Qarabağı uzun illərdir işğal altında saxlayan Ermənistan silahlı qüvvələri torpaqlarımızdan çıxmaq istəmir.**

Tarixən Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz parçası olub və burada heç zaman erməni təsiri olmayıb.

Bildiyimiz kimi, fevralın 15-də Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanın iştirakı ilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələri zamanı erməni dövlət başçısı, eyni zamanda, qondarma məsələlər haqda sərsəm çıxış edib. Prezident İlham Əliyev isə öz çıxışı zamanı Paşinyanın yalanlarını, onun tarixdən, siyasətdən xəbərsiz olmasını ifşa edib. Qeyd edək ki, debatda Prezident İlham Əliyev "…Düşünürəm ki, bu gün yetərli suallara cavab verə biləcəyik, ilk növbədə, münaqişənin həlli ilə bağlı. Münaqişənin necə həll edilməsi haqqında danışmaq üçün hər şeydən öncə biz geriyə qayıtmalı və məsələnin tarixinə baxmalıyıq. Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsidir. Bu, tarixi həqiqətdir və beynəlxalq hüququn normalarına əsaslanır. Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınır. Dağlıq Qarabağ bizim ölkənin ayrılmaz tərkib hissəsidir. Tarixi nöqteyi-nəzərdən, 1805-ci ildə Qarabağ xanı İbrahim xan Rusiya imperiyasının generalı Sisianovla saziş imzalayır. Bu sazişə əsasən, Azərbaycanın Qarabağ xanlığı müstəqil ölkə kimi Rusiya imperiyasının tabeçiliyinə keçir. "Kürəkçay" adlandırılan həmin sazişdə, - sazişin mətni internetdədir, - Qarabağın erməni əhalisi barədə heç nə deyilmir. 1813-cü və 1828-ci illərdə imzalanmış digər müqavilələr - "Gülüstan" və "Türkmənçay" müqavilələrinə əsasən, Azərbaycanın qalan hissələri Rusiya imperiyasının tərkibinə keçir. Dağıstan, Gürcüstan və Ermənistan da həmçinin. Beləliklə, bu, məsələnin tarixi tərəfidir. Daha sonra Rusiya imperiyasının süquta uğradığı, Gürcüstan və Azərbaycan Demokratik respublikaları yaradıldığı zamanlarda Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci ildə verdiyi ilk fərmanlardan biri Yerevanın Azərbaycandan Ermənistana verilməsi və onun Ermənistanın paytaxtı elan edilməsi ilə bağlı idi. Bu da, həmçinin, tarixi faktdır. Əgər siz kiməsə nəsə verirsinizsə, bu, o deməkdir ki, həmin o nə isə sizə məxsus olub. 1921-ci ildə Bolşevik partiyasının Qafqaz Bürosu Dağlıq Qarabağın Azərbaycanın tərkibində saxlanması barədə qərar qəbul etdi. Saxlanması barədə qərar, bəzi erməni tarixçilərinin yazdığı kimi, verilməsi barədə yox. Bu da, həmçinin, tarixi faktdır. Digər tarixi fakt ondan ibarətdir ki, 1923-cü ildə Azərbaycan Sovet Sosialist Respublikası Azərbaycanın tərkibində Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması barədə fərman qəbul etdi. Beləliklə, bu, tarixdir. Sonralar, 1980-ci illərin sonunda Ermənistan Azərbaycana qarşı təcavüzə başladı, 300 min azərbaycanlı Ermənistan ərazisindən deportasiya olundu. Sonra Ermənistanın Azərbaycan Respublikasına qarşı təcavüzü nəticəsində 1990-cı illərin əvvəlində bizim ərazilərimizin təxminən 20 faizi işğal altına düşdü və 1 milyon azərbaycanlı qaçqın və məcburi köçkünə çevrildi. Xalqımız etnik təmizləməyə məruz qalıb. 1992-ci ildə Ermənistanın əvvəlki rejimi müharibə cinayəti - Xocalı soyqırımını törətdi. Nəticədə aralarında 106 qadın, 63 uşaq olmaqla, 613 günahsız mülki şəxs vəhşicəsinə öldürüldü. Xocalı soyqırımını 10-dan artıq ölkə tanıyır" - deyə bildirib.

1921-ci ildə Qafqaz bürosunun qəbul etdiyi qərarı şərh edən ekspertlər qeyd edirlər ki, həmin qərarda Dağlıq Qarabağın Azərbaycanın tərkibində qalması əks olunub.

Politoloqlar qeyd edirlər ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Ermənistan rəhbərliyi tərəfindən səsləndirilən bəzi fikirlər tarixi reallıqları, münaqişənin əsl mahiyyətini əks etdirmir. Bu baxımdan, son vaxtlar, xüsusilə fevralın 15-də Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanın iştirakı ilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələri zamanı Ermənistan Baş nazirinin sərsəm çıxışları, eyni zamanda, qondarma "Dağlıq Qarabağ Respublikası"nın tanınması ilə əlaqədar ictimaiyyətə yalan məlumat çatdırılması bu məqsədə xidmət etməklə yanaşı, beynəlxalq hüququn norma və prinsipləri ilə tamamilə ziddiyyət təşkil edir.

Politoloqların fikrincə, heç şübhəsiz ki, Ermənistan rəhbərliyinin əsas məqsədi hərbi təcavüzün məsuliyyətindən qaçmaq üçün Dağlıq Qarabağ ermənilərinin münaqişədə iştirak edən tərəf kimi tanınmasını bütün vasitələrlə Azərbaycana qəbul etdirməyə çalışmaqdır. Ermənistanın Dağlıq Qarabağa dair ərazi iddiaları tam əsassızdır. Bunu Azərbaycan Prezidenti İlham Əliyev "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik toplantısında, eləcə də MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında çıxışı zamanı tutarlı faktlarla sübut edib.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, siyasi elmlər doktoru, "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin sədr müavini Elçin Əhmədovun fikrincə, heç şübhəsiz ki, Ermənistanın Dağlıq Qarabağa dair ərazi iddiaları tam əsassızdır. "Bunu Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələri zamanı Azərbaycan Prezidenti İlham Əliyev tarixi faktlara əsaslanaraq Ermənistan Baş nazirinin və dünya ictimaiyyətinin bir daha diqqətinə çatdırdı. Dövlət başçısı bildirdi ki, Qarabağın dağlıq hissəsinə erməni əhalisinin köçürülməsi XIX əsrin 20-ci illərində, xüsusilə Cənubi Qafqazın Çar Rusiyası tərəfindən işğal edilməsindən sonra baş verib. Qeyd etmək lazımdır ki, hələ bundan əvvəl, XIX əsrin əvvəllərində - 1805-ci il mayın 14-də Qarabağ xanı İbrahim xanla Çar Rusiyasının Qafqaz qoşunlarının baş komandanı general Sisianov arasında "Kürəkçay" müqaviləsi ("Andlı öhdəlik") imzalanmışdı. Bu fakt onu göstərir ki, ermənilər Qarabağ xanlığında yaşayıb vəzifə sahibi olsaydılar, general Sisianovla müqavilə Qarabağ xanı İbrahim xanla imzalanmazdı.

Prezident İlham Əliyev diqqətə çatdırdı ki, 1804-1813-cü, 1826-1828-ci illər Rusiya-İran və 1828-1829-cu illər Rusiya-Türkiyə müharibələrinin gedişində, həm də sonralar ermənilərin İran və Türkiyədən kütləvi surətdə Cənubi Qafqaza, o cümlədən, Qarabağa köçürülməsi nəticəsində burada onların sayı ilbəil artdı. Bunu Rusiya ilə İran arasında bağlanmış "Gülüstan" (12 oktyabr 1813-cü il) və "Türkmənçay" (10 fevral 1828-ci il) müqavilələri kimi sənədlər də təsdiq edir.



Nəticədə 1828-ci ildən sonra Qarabağ bölgəsinin dağlıq hissəsinə İrandan və Türkiyədən rəsmən 124 min (qeyri-rəsmi 200 min) erməni köçürülüb, bu proses bütün XIX əsr boyunca davam etdirilib və bu da demoqrafik vəziyyətə müəyyən təsir göstərib.

Bununla yanaşı, Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycan Xalq Cümhuriyyəti yaradılarkən regionda mövcud olan geosiyasi vəziyyət 1918-ci il mayın 29-da İrəvan şəhərinin ermənilərə siyasi mərkəz kimi verilməsinə səbəb oldu. Beləliklə, 1918-ci ildə Azərbaycan torpaqlarında - keçmiş İrəvan xanlığının ərazisində Ermənistan Respublikası yaradıldı. Qarabağ 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti dövründə Gəncə quberniyasının tərkibində, sonralar 1921-1991-ci illərdə isə Azərbaycan SSR-in ayrılmaz tərkib hissəsi olub.

Ancaq Ermənistan rəhbərliyi tarixi faktları ermənisayaq təfsir edərək bildirir ki, Azərbaycanın Sovet İttifaqından müstəqillik əldə etdiyi kimi, eyni yolla Dağlıq Qarabağ həm Sovet İttifaqından, həm də Sovet Azərbaycanından "müstəqilliyini" əldə edib. Bundan əlavə, Ermənistanın Baş naziri tarixdən xəbərsiz və əsassız olaraq bildirdi ki, Qafqaz bürosu Dağlıq Qarabağın Ermənistanın tərkib hissəsi olmasına qərar vermişdi. Azərbaycan Prezidenti İlham Əliyev tutarlı faktlarla bu saxta tezisi ifşa etdi. Həqiqətən də Azərbaycana qarşı ərazi iddialarından əl çəkməyərək, Ermənistanda sovet hakimiyyətinin elan edilməsindən dərhal sonra ermənilər Dağlıq Qarabağ məsələsini yenidən ortaya atdılar. Bununla da iki sovet respublikası arasında ixtilaflar artdığından, 1921-ci il iyulun 4-5-də RK(b)P MK-nın Qafqaz bürosunun plenumu məsələni müzakirə etməli oldu. İyulun 5-də plenumun səhər iclasında Qarabağ məsələsinə yenidən baxıldı. Plenum RK(b)P MK-nın rəyini nəzərə alaraq yeni qərar qəbul etdi: "Müsəlmanlarla ermənilər arasında milli barışığın zəruriliyini, yuxarı və aşağı Qarabağın iqtisadi əlaqələri və daim Azərbaycanla sıx əlaqədə olmasını nəzərə alaraq, Dağlıq Qarabağ Azərbaycan SSR-in hüdudlarında saxlansın, muxtar vilayətin tərkibinə daxil olan Şuşa şəhəri inzibati mərkəz olmaqla, ona geniş vilayət muxtariyyəti verilsin".

Prezident İlham Əliyev qeyd etdi ki, Ermənistan tarixçilərinin və rəhbərliyinin dediyi kimi, əgər Dağlıq Qarabağ Ermənistan SSR-in tərkibində olsaydı, qərarda "Azərbaycan SSR-in hüdudlarında saxlansın" əvəzinə, "Azərbaycan SSR-ə verilsin" yazılardı. Nəticədə Qarabağ bölgəsinin dağlıq hissəsinə köçürülmüş ermənilərə 1923-cü il iyulun 7-də Sovet Rusiyasının himayədarlığı və bilavasitə iştirakı ilə Azərbaycan tərkibində Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) adlı status verilmiş və nəticədə bu hadisə Ermənistanın Dağlıq Qarabağa dair gələcək ərazi iddiaları üçün bir vasitə olub…" - deyə o qeyd edib.

Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Faiq Ələkbərli "Bakı-Xəbər"ə bildirdi ki, 1921-ci ilin iyulun 4-5-də Qafqaz bürosunun qəbul etdiyi qərar özü Dağlıq Qarabağın Azərbaycanın tərkib hissəsi olduğunu bir daha sübut edir. "Bildiyimiz kimi, hələ Cümhuriyyət dövründən Ermənistan tərəfindən Dağlıq Qarabağa qarşı iddia irəli sürülür. Ermənilər həmin dövrdə də bir sıra problemlər yaradırdılar. 1920-ci ilin 28 aprel işğalından sonra, noyabrın 30-da Ermənistanda da Sovet Sosialist Respublikası quruldu. Bundan sonra Ermənistan SSR rəhbərliyi də Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi ilə bağlı səylərini gücləndirdi. 1921-ci il uyunun 19-da Ermənistan SSR Xalq Komissarları Sovetinin sədri Myansikovun bəyanatı ilə Dağlıq Qarabağı Ermənistanın ayrılmaz tərkib hissəsi kimi elan etdilər. Ancaq buna Azərbaycan tərəfi etiraz edirdi. Ona görə də Ermənistan SSR-in Dağlıq Qarabağda fövqəladə nümayəndəsi təyin edilən Mnavyan da Nəriman Nərimanovun etirazları nəticəsində 1921-ci il iyun ayının 27-də geri çağırıldı. Üstəlik, 1921-ci il iyunun 27-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi özünün siyasi və təşkilati bürolarının birgə iclasında Ermənistanın Qarabağın yuxarı hissəsinə iddialarını rədd etdi. Ancaq buna baxmayaraq, 1921-ci il 4 iyul plenumunda Rusiya Kommunist Partiyasının Qafqaz bürosü Dağlıq Qarabağın Ermənistan SSR-ə verilməsi ilə bağlı ədalətsiz qərar qəbul etdi, lakin bu qərarın ömrü uzun sürmədi. O zaman bu ədalətsiz qərara plenumda iştirak edən Azərbaycanın Müvəqqəti İnqilab Komitəsinin sədri, ümumiyyətlə, Azərbaycanın əsas rəhbəri olan Nəriman Nərimanov qəti etiraz etdi. Nərimanovun etirazından sonra 1921-ci il iyulun 5-də yenə Rusiya Kommunist Partiyasının Qafqaz bürosu Dağlıq Qarabağa Azərbaycan SSR-in tərkibində saxlanmaqla, inzibati mərkəzi Şuşa şəhəri olmaqla geniş vilayət muxtariyyəti statusu verdi. Dağlıq Qarabağa Azərbaycanın tərkibində saxlanması şərtilə məlum statusun verilməsi erməniləri ciddi narazat edirdi. Buna baxmayaraq, yenə də ermənilər öz iddialarından əl çəkmək istəmirdilər və bütün hallarda, 1923-cü il iyul ayının 7-də mərkəzi Şuşa olmaqla yenə də Dağlıq Qarabağ Azərbaycanın tərkibində saxlandı. Sonradan da ermənilər bu iddiadan əl çəkmədilər".

F.Ələkbərli qeyd etdi ki, Paşinyanın iddiaları tamamilə əsassızdır. Onun sözlərinə görə, Paşinyan keçmiş Dağlıq Qarabağın Azərbaycanın tərkibində saxlanması məsələsində SSRİ-ni ittiham edir ki, guya ermənilərə haqsızlıq edib. "Dağlıq Qarabağ həm Cümhuriyyət, həm də Cümhuriyyətdən əvvəlki dönəmlərdə, xanlıqlar və qədim dövlətlər dövründə Azərbaycanın olub. Dağlıq Qarabağ həmişə Azərbaycanın ayrılmaz tərkib hissəsi olub, bu gün də Azərbaycanın tərkib hissəsidir" - deyə F.Ələkbərli qeyd etdi.

***İradə SARIYEVA***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Deputatların maaş məsələsi - hədsiz yüksək maaş cəmiyyətdə qıcıq, deputatlığa ifrat meyl mənbəyi kimi... Özünü doğrultmayanlar da yüksək maaş alıb getdilər...

***Ramil Hüseynov:** "Bütün deputatlara eyni məbləğdə belə yüksək maaşların verilməsi doğru deyil"*

**Hazırda Milli Məclisin sıravi deputatlarının əməkhaqqı parlamentin sədrinin maaşının 70 faizi qədər, komitə sədrlərinin maaşı 80 faizi qədər, sədr müavininin maaşı 90 faizi qədər, birinci müavinin maaşı 95 faizi qədərdir. Belə ki, sıravi deputatların əməkhaqqı 1730 manatdır.**



Sıravi deputatın maaşına əsasən aparılan hesablamalarımız göstərir ki, parlament sədrinin rəsmi maaşı 2 471 manat, birinci müavinin rəsmi maaşı 2 347 manat, müavinin rəsmi maaşı 2 224 manat, komitə sədrlərinin maaşı 1977 manatdır.

Milli Məclis üzvlərinə deputatlıq fəaliyyətini yerinə yetirdiklərinə görə təxminən 730 manat əlavə müavinət təyin edilib. Rəsmi maaşların üzərinə 730 manat müavinəti gələndə parlament sədrinin aylıq gəliri 3 201 manat, birinci müavinin aylıq gəliri 3 077 manat, müavinin aylıq gəliri 2 954 manat, komitə sədrlərinin aylıq gəliri 2 707 manat, sıravi deputatın aylıq gəliri isə 2460 manat edir. Həmçinin, bayram günlərində (Yeni il, Novruz bayramı, Qurban bayramı, Ramazan bayramı) deputatlara 700 manat bayrampulu verilir. Bundan başqa, deputatlar 3 aylıq yay tətili üçün rəsmi maaşlarından əlavə, 3 aylıq maaşlarının məbləği qədər məzuniyyət və istirahət pulu alırlar. Həmçinin, pensiya hüququna malik olan eks-deputatlara Milli Məclisin fəaliyyətdə olan deputatının maaşı qədər pensiya verilir.

Müşahidələr göstərir ki, parlament üzvlərinin yüksək maaş alması cəmiyyətdə birmənalı qarşılanmır. İnsanların çoxu buna ikrah hissi ilə yanaşır və tez-tez belə fikirlər səslənir ki, "deputatların bu qədər maaş alması və imtiyazlara sahib olması doğru deyil". Bu bir sıra amillərlə əlaqələndirilir. Əvvəla belə yüksək imtiyazlar, yeri gəldi-gəlmədi, bəzilərini millət vəkili olmağa həvəsləndirir. Baxırsan ki, namizədin siyasi savadı, anlayışı aşağı səviyyədədir, ancaq deputat olmağa çalışır. Bütün vasitələrlə çalışır ki, parlamentə düşsün. Beləri seçicilərin səsini parçalayaraq daha layiqli şəxslərin parlamentə düşməsinin qarşısını alırlar. Hətta vəziyyət o yerə gəlib çatıb ki, bəzi şou müğənniləri belə deputat olmaq istəyirlər. Təbii ki, onları da parlamentə yüksək maaş və imtiyazlar cəlb edir. Başqa bir tərəfdən, parlamentdə elə deputatlar var ki, bir neçə dəfə seçilmələrinə rəğmən, bir dəfə də olsun müzakirələrdə aktiv iştirak etməyiblər. Çoxlarının fəaliyyəti passivdir. Eləsi var ki, bir dəfə belə spikerdən söz alıb danışmayıb. Belə olan halda, parlamentdə fəal olan millət vəkilinə də, heç danışmayan deputata da yüksək maaş vermək doğru deyil. Hansı ki, özünü doğrultmayan millət vəkilləri var və onların da bu imkanlardan istifadə etməsi cəmiyyətdə xoş qarşılanmır. Bununla belə, əvvəlki parlamentin Prezidentin islahatlar kursuna dəstəyi elə də özünü göstərmədi. Parlamentin bu yöndə fəaliyyətində hansısa dinamiklik müşahidə edilmədi. Bütün bunlardan çıxış edərək deputatlara yüksək maaş və imtiyazlar verilməsi nə dərəcədə doğrudur?

*"...cəmiyyətdə müəyyən qıcıq yaradır"*

Məsələyə münasibət bildirən siyasi ekspert Ramil Hüseynovun sözlərinə görə, bütün deputatlara eyni məbləğdə belə yüksək maaşların verilməsi doğru deyil: "Düzdür, parlamentdə fəal olan millət vəkilləri də var. Hansı ki, onlar qanun yaradıcılığında, hansısa məsələlərin müzakirəsində, müəyyən problemlərin qaldırılmasında aktiv iştirak edirlər. Ancaq belə millət vəkillərinin sayı barmaqla sayılacaq qədər azdır. Bunu cəmiyyət də yaxşı bilir.

Çünki mətbuat və telekanallar vasitəsilə onların fəaliyyəti izlənir. Deputatların əksəriyyəti iclaslarda passiv iştirak edir. O cümlədən, parlamentdə bir sıra komitələr var. Baxıb görürük ki, həmin komitələrdə belə, deputatlar müzakirələrdə aktiv iştirak etmirlər. Nəzərə almaq lazımdır ki, komitə üzvü və sədri olan deputatlar digərlərindən daha çox məvacib alırlar. Bütün bunlar, təbii ki, cəmiyyətdə müəyyən qıcıq yaradır. Haqlı olaraq soruşurlar ki, "onlar nəyin müqabilində bu qədər maaş alırlar? O baxımdan, millət vəkillərinə bu qədər yüksək məvacib verilməsi düzgün deyil".

***Vidadi ORDAHALLI***

# Buraxılmış parlamentin tərkibi 100 faiz yeniləsəydi... Fəzail Ağamalı hansı təhlükədən danışır...

***Vüqar Rəhimzadə:** "Yenilənmənin hansı şəkildə əks edilməsindən asılı olmayaraq, bunun dövlətimiz üçün heç bir təhlükəsi ola bilməzdi"*

**60 saylı Salyan-Neftçala seçki dairəsinin lider namizədi olan, Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı mediaya açıqlamasında bildirib ki, parlamentin tamamilə yenilənməsi ciddi problemlərə səbəb ola bilərdi: "Növbədənkənar parlament seçkiləri parlamentin 125 deputatının tamamilə yenilərlə əvəzlənməsi demək deyil.**



Bu çox böyük, ciddi problemlər yarada bilərdi. Ola bilər ki, bəzi insanlar özünü cəmiyyətdə təsdiq edib, amma parlament təcrübəsi yoxdur".

F.Ağamalının bu açıqlaması cəmiyyətdə birmənalı qarşılanmayıb. Hətta bəziləri bunu hakimiyyətin ünvanına səslənən təhdid kimi də dəyərləndiriblər. Belə qənaətdə olanlardan biri REAL Partiyasının funksioneri Natiq Cəfərli olub. O, mediaya verdiyi açıqlamada yuxarıda qeyd etdiyimiz qənaəti bölüşüb.

F.Ağamalı sonra verdiyi açıqlamasında hakimiyyəti təhdid etmədiyini deyib: "Çox təəssüf edirəm ki, kifayət qədər intellekti olan Natiq Cəfərli mənim dünya praktikasında və parlament peşəkarlığında öz təsdiqini tapan rəyimə başqa çür yanaşıb. Əlbəttə, parlamentə keçirilən seçkilərdə həlledici söz seçicilərindir. Seçicilərin etimad göstərdiyi şəxslər parlamentdə təmsil olunmalıdırlar. Bu, inkaredilməz faktdır. Xüsusi olaraq öz adımdan deyirəm ki mənim illər boyu fəaliyyətimdə hakimiyyəti təhdid etmək praktikası yoxdur".

Artıq seçkilər baş tutub və parlamentdə kimlərin təmsil olunacağınının böyük əksəriyyəti məlumdur. Ortada olan fakt budur ki, parlament tam yenilənmədi. F.Ağamalının fikirlərində hansısa məqsəd və məram axtarmaqdan da uzağıq. Çünki özü bu məsələyə aydınlıq gətirib. Ancaq bu məsələyə bir nəzəri cəhətdən yanaşmaq istərdik. Parlamentin 125 deputatının hamısı yenilənsəydi, bunun ölkəmiz üçün hansısa təhlükəsi ola bilərdimi? Bir faktı da nəzərə alaq ki, keçmiş parlamentin tərkibinə cəmiyyətdə böyük inanmsızlıq vardı.

"İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu məsələlərə bir qədər qanuni aspektdən yanaşmaq lazımdır: "Parlamentin hansı tərkibdə olmasını biz istəyimizlə müəyyən edə bilmərik. Qanunverici orqan xalqın seçimi əsasında formalaşdırılır. Seçkilərin ümumi nəticəsi göstərdi ki, seçicilər orada həm təcrübəli insanları, həm də yeni simaları görmək istəyirlər. Artıq bu seçim olub və arxada qalıb. Hesab edirəm ki, parlamentin tamamilə yenilənməsi də heç bir təhlükəyə səbəb ola bilməzdi. Bir daha qeyd edim ki, bu bizim istəyimizlə olmur. Peşəkarlıqla gənclərin sintezi daha uğurlu nəticə verə bilər. Biz təcrübəli kadrları da kənarda saxlaya bilmərik. Tamamilə passivlik göstərən millət vəkillərinin bir çoxuna bu dəfə etimad göstərilmədi. Bunun özü də yenilənmə istiqamətində atılan addımdır. Yenilənmə deyəndə biz, mütləq mənada, bütün deputatların ucdantutma dəyişməsini nəzərdə tutmamalıyıq. Parlamentdə köhnələr də təmsil olunmalıdır, yenilər də. Biz təcrübədən daim bəhrələnməliyik. Amma bir daha qeyd edim ki, yenilənmənin hansı şəkildə əks edilməsindən asılı olmayaraq, bunun dövlətimiz üçün heç bir təhlükəsi ola bilməzdi. Ümidvaram ki, yeni formalaşacaq parlament də öz işinin öhdəsindən layiqincə gələ biləcək".

***Məhəmmədəli QƏRİBLİ***

# Ermənistan Avropa Məhkəməsinin son qərarına təzyiqlərə başladı - Məhkəmə Ramil Səfərovun işi barədə hansı qərarı verəcək...

**Milli Ordunun zabiti Ramil Səfərovun Ermənistan hərbçisi Qurqen Markoryanı Budapeştdə qətlə yetirməsinin ildönümüdür. Ermənistan KİV-i bu məsələ ilə bağlı xüsusi təbliğata start verib. Onlar həmin hadisənin tarixinə ekskurs edirlər.**



## *Yeganə Hacıyeva: "Cəzasını çəkmiş bir şəxslə bağlı hansısa sərt qərarın qəbul edilməsi Avropa Məhkəməsinin səlahiyyətinə aid deyil"*

Bildirirlər ki, guya Macarıstan bu məsələdə qanunsuzluğa yol verərək R.Səfərovun Azərbaycana ekstradisiyasını təmin edib. Zabitimizin Azərbaycanda əfv edilməsini də erməni mediası qanunsuzluq kimi təqdim etməyə çalışır. Hətta bu hadisəyə görə Ermənistanla Macarıstan arasındakı diplomatik münasibətlərin kəsildiyinə də nəzər salınır.

Qeyd olunur ki, Qurqen Markoryanın öldürülməsi ilə bağlı məhkəmə araşdırması İnsan Haqlarına dair Avropa Məhkəməsinin sonuncu etapındadır. Ermənistan mətbuatına bu barədə məlumat verən vəkil Siarnuş Saakyan bildirib ki, yaxın günlərdə yekun qərar açıqlanacaq. Vəkil bildirib ki, qəbul ediləcək məhkəmə qərarı danışıqlar prosesində siyasətçilərin əlində yaxşı təzyiq vasitəsi olacaq. Vəkilin mövqeyindən belə başa düşülür ki, onlar indidən məhkəmənin hansı qərar verə biləcəyini təxmin edir və ya bu barədə məqsədli şəkildə cəmiyyətə çaşdırıcı məlumat ötürürlər. Ümumiyyətlə, bizim ekspertlər Ramil Səfərovla bağlı Avropa Məhkəməsində aparılan işin perspektivini necə dəyərləndirirlər?

Beynəlxalq məsələlər üzrə ekspert Yeganə Hacıyeva "Bakı-Xəbər"ə bildirdi ki, həmin qətl hadisəsi Ermənistanda yox, Avropa ölkələrindən birində baş verib: "Hadisənin yaşandığı Macarıstan dövləti suveren məhkəmə sisteminə malikdir. Ölkə Avropa Şurasının üzvü olduğu səbəbindən konvensiyaları da qəbul edib. Baş verən hadisə həmin ölkənin qanunlarına uyğun şəkildə araşdırılıb, Ramil Səfərov oranın qərarı ilə cəzaya məhkum edilib və uzun müddət həbsdə saxlanıb. Ardınca Avropa Şurasının özünün tanıdığı qaydalara əsasən, iki ölkənin razılığına görə Azərbaycana ekstradisiya edilib və ölkə başçısı tərəfindən əfv edilib. Ramil Səfərovla bağlı bütün hüquqi prosedurlar həyata keçirilib. Ermənistan tərəfinin etdiyi şikayətdə əsasən milli diskriminasiya faktı qabardılır. Deyilir ki, Ramil Səfərov Qurqeni milli mənsubuyyətinə görə öldürüb. Düzdür, Avropa qanunları və konvensiyaları diskriminasiyanı qəbul etmir. Ancaq həmin qətl birmənalı şəkildə diskriminasiya zəminində olmayıb. Ramil Səfərovun özü diskriminasiyaya məruz qalıb. Milli kimliyinə görə doğma kəndindən didərgin düşüb. Bütün dediklərimiz onun psixikasında ciddi izlər buraxıb. Baş verən qətl hadisəsində Ramil Səfərovun təhqir edilməsi amili də dayanır".

Ekspertin sözlərinə görə, Azərbaycan tərəfinin müdafiə olunmaq üçün əlində ciddi arqumentləri var: "Erməni zabiti Səfərovu milli kimlik zəminində təhqir edib. Bu məsələ ilə bağlı Avropa Məhkəməsinin hansısa sərt qərar qəbul edəcəyi inandırıcı deyil. Qərar təxmini belə olacaq ki, qətli törədənlə bağlı lazımi addımlar atılıb, sonra isə o, qanuni şəkildə azad edilib. Cəzasını çəkmiş bir şəxslə bağlı hansısa sərt qərarın qəbul edilməsi Avropa Məhkəməsinin səlahiyyətinə aid deyil. Ermənistan tərəfinin şikayətində emosional məqamlara daha çox üstünlük verilib. Hüquq isə belə şeyləri tanımır, konkretliyi qəbul edir. Ramil Səfərov həmin hərəkətə görə cəzasını çəkib və qanuni əsaslarla azad olunub".

***Məhəmmədəli QƏRİBLİ***

# Paşinyan Münhen Təhlükəsizlik Konfransında da Qafqazda sülhə meydan oxuduğunu nümayiş etdirdi - Sərkisyanın "təhlükəsizlik kəməri" hələ yaşadılır...

**Ermənistanın baş naziri Nikol Paşinyan Azərbaycan torpaqlarının işğal olunması faktını etiraf edib. O, bununla bağlı Münhen Təhlükəsizlik Konfransında iştirak üçün səfər etdiyi Almaniyada danışıb. Konfrans çərçivəsində keçirilən görüşün iştirakçısı Gülnar Qurbanova Paşinyana Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı sual verib.**



O bildirib ki, Ermənistan tərəfindən işğal olunan Cəbrayıl rayonunda doğulub və hələ də doğma torpaqlarına geri qayıda bilmir. Bu suala cavab verən N.Paşinyan etiraf etməli olub: "Bəli, biz Cəbrayıl rayonunu işğal etmişik". Ancaq o, işğal olunmuş ərazilərdən olan məcburi köçkünlərin və qaçqınların öz doğma torpaqlarına nə vaxt və necə qayıda biləcəkləri barədə sualı cavabsız qoyub. Nikol Paşinyan həm tarixi faktlar, həm də Dağlıq Qarabağ münaqişəsi zonasındakı mövcud vəziyyət barədə, həmişə olduğu kimi, yenə yalan söyləyib və faktiki olaraq Ermənistanın törətdiklərində, ənənəsinə uyğun, Azərbaycanı ittiham edib. Sələflərinin-Qarabağ uğrunda müharibənin təşəbbüskarı olan Serj Sarkisyan və Robert Köçəryanın ardınca o, işğal edilmiş Azərbaycan ərazilərini "təhlükəsizlik kəmər" adlandırıb. Beləliklə, o, alman ictimaiyyətini inandırmağa çalışıb ki, guya münaqişədə təcavüz nümayiş etdirən İrəvan yox, Bakıdır. Göründüyü kimi, Paşinyan Avropanın mərkəzində, özü də təhlükəsizliyə aid olan bir konfransda sülhə bu şəkildə meydan oxuyur. Ən əsası isə, özündən əvvəlki sülhə təhdid mövqeyini tutan sələflərinin xəttini daha sərt formada davam etdirir. Paşinyanın bu mövqeyinə Avropa hansı reaksiyanı verməlidir? Görünən budur ki, Paşinyanın məhz təhlükəsizliklə bağlı paltformada belə çıxış etməsi dünyada və regionda sülhə və təhlükəsizliyə əsl təhdiddir. Artıq beynəlxalq birlik də gördü ki, Nikol Paşinyan və onun komandası Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həlli prosesini irəli aparmaq potensialında deyil, bunu istəmir, əksinə, kövrək prosesi də gərginləşdirmək kursu götürüb. Halbuki, beynəlxalq vasitəçilər, ABŞ və Avropa Birliyi Ermənistanın yeni rəhbərliyindən dünənə qədər, öncəki iqtidarlardan fərqli olaraq, daha konstruktiv addımlar atmağı, erməni xalqını sülhə hazırlamağı gözləyirdilər. Çünki Paşinyanın reytinqi, sələflərindən fərqli olaraq, yüksək idi. Ancaq proseslərin gedişi göstərir ki, Paşinyanın ölkə daxilində reytinqi sürətlə aşağı düşür. Çünki artıq o, Sarkisyanın və Köçəryanın zamanında səslənən yayındırıcı terminlərdən istifadə edir. Həm də bunu daha kobud formada arqumentləşdirir. Bu arada, Ermənistanda müharibə xofunun getdikcə artması müşahidə olunmaqdadır. Düşmən ölkədə hesab edirlər ki, Qarabağda irimiqyaslı müharibə təhlükəsi heç vaxt bu qədər yaxın olmayıb. Çünki danışıqların dalana dirəndiyini hər iki tərəf, eləcə də vasitəçilər təsdiqləyir. Artıq nəinki sülh danışıqları, heç onun imitasiyası da yoxdur. Erməni politoloqları da etiraf edir ki, son 20 ildə vəziyyət heç vaxt indiki kimi pis olmamışdı və hamılıqla dərk edirlər ki, danışıqlar ciddi uğur gətirmir, amma detalların müzakirəsi, tərəflərin mövqelərinin təqdim edilməsi, fikir mübadiləsi və mümkün nizamlama sxemlərinin hazırlanması üçün də Ermənistan rəhbərliyi tərəfindən səylər edilmir. Üstəlik, Paşinyan Münhendə yenidən "Qarabağ Ermənistandır, nöqtə" ifadəsinə haqq qazandırmaqla danışıqlar prosesinin dayandırılmasında Ermənistan hakimiyyətinin rolunu təsdiq edib. İndi Paşinyan beynəlxalq ictimaiyyəti əmin etməyə çalışır ki, onları güzəştə vadar etməyin xeyri yoxdur. Hətta işğal faktını da etiraf edib, bunu "təhlükəsizlik kəməri" kimi təqdim etməklə özünə və işğalı reallaşdıran əvvəlki ölkə başçılarına haqq qazandırmağa çalışıb. İndi söz vasitəçilərin və Avropada təhlükəsizliyi istəyənlərindi...

***Məhəmmədəli QƏRİLİ***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi




# "Ermənistanda Paşinyanın dəstəkçiləri elə danışır ki, sanki Münhendə divara sıxılan Əliyev idi"

**Siyasi gündəmin hələ də əsas prioritet mövzularından biri fevralın 15-i Münhen Təhlükəsizlik Konfransında Azərbaycan prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında Dağlıq Qarabağ münaqişəsi ilə bağlı keçirilən debatdır.**

Belə görünür ki, erməni tərəfi bu debat zamanı aldıqları zərbəni həzm etməkdə ciddi çətinlik çəkir. Əks təqdirdə bu debatın nəticələri, onun Ermənistanı biabırçı məğlubiyyətə düçar etməsi qarşı tərəfdə belə geniş müzakirə olunmazdı.

Paşinyanın debat zamanı tarixi faktları təhrif etməsi, ingilis dilində normal danışa bilməməsi, həmçinin əsassız siyasi təhlili onu çıxılmaz və gülünc vəziyyətə saldı. Bunu beynəlxalq qurumların təmsilçiləri ilə yanaşı, Ermənistanın özündə də etiraf edirlər. Məsələyə yenidən qayıdan politoloq Aleksandr Manasyan hesab edir ki, Paşinyan özünün ilk ictimai debatına hazırlıqsız gəlməklə ölkəni pis vəziyyətdə qoyub: "Bağlı qapılar arxasında müzakirələr asan olur, lakin iki dövlət başçısının rəqabət apardığı mətbuat konfransının gedişində hər şey başqa cürdür. Birinci halda konkret nəyin müzakirə olunduğu məlum deyil, lakin ehtimal etmək mümkündür. Mətbuat konfransı isə mitinqə bənzəyir. Amma bu mitinq İrəvanda keçirilmir və ona yaxşı hazırlaşmaq lazımdır". Onun sözlərinə görə, Nikol Paşinyanın şəxsində erməni tərəfinin bəyanatı çox da inandırıcı deyildi. Ekspert əlavə edir: "Paşinyanın Böyük Tiqran haqqında və Ermənistanda inqilabla bağlı söylədiyi tarixi sübutlar zəif olub". Onun fikrincə, bunu hətta aparıcı da başa düşdü və o təəccüblənmişdi. Eyni zamanda, Manasyan qeyd edib ki, bu cür sübutlar ABŞ, Rusiya və Avropa İttifaqı kimi böyük aktorların xoşuna gəlmir. Belə ki, həmin vaxt bir çox dövlət mövcud deyildi və belə bəyanatlar onların qüruruna və şərəfinə toxunur: "Əgər hökumət başçısı bu yolla getməyə qərara veribsə, onda həmin sübutları da ağılla və daha dəqiq təqdim etmək lazım idi. Bu, mənfi reaksiya doğurmazdı". O, tarixi faktlara müraciəti yersiz hesab edir: "Ümumiyyətlə, Paşinyanın etdiyi kimi, tarixə bu qədər dərin ekskursiyanın heç bir mənası yox idi. Çünki həmin vaxt hüquqi aspektlər tarixi sübutlardan heç də az əhəmiyyətli deyildi".

Digər erməni şərhçi Tevos Arşakyan Münhen məğlubiyyətindən sonra Paşinyanın tənqidçilərinin artdığını vurğulayır. Onun sözlərinə görə, Münhendə məzmunsuz, tutarsız və biabırçı nitqinə görə son günlərdə Paşinyana "təpik vurmayan" qalmadı: "Bu biabırçılıq nəticəsində Paşinyanı təkcə rəqibləri yox, həm də dünənə qədər onun üçün yaxasını cıranlar da sərt tənqid edir. Hökumət başçısının tənqidçilər ordusu qar uçqunu kimi artmaqda davam edir". Arşakyan erməni cəmiyyətinin dərin təəssüf içində olduğunu vurğulayıb:"Vaxtilə xalq olaraq Sarkisyanın kriminal-oliqarx rejimindən xilas olmağımıza sevinirdik. Ümid edirdik ki, həyatımız yaxşılaşacaq, lakin 2 il ərzində heç nə dəyişmədi. Nə Ermənistanın daxilində, nə də beynəlxalq səhnədə heç nə ilə qürur duya bilmirik. Avrasiya İqtisadi İttifaqı, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı və MDB sammitlərində Paşinyan kölgədə qalır. Belə görünür ki, o, beynəlxalq meydançalarda özünü apara bilmir, axı beynəlxalq səhnə nə tərəfdarları önündə çıxış etdiyi Ermənistan, nə də hücuma keçdiyi sosial şəbəkədir. Münhen bunu bir daha təsdiqlədi. Və məsələ təkcə Əliyevin mükəmməl ingilis dili qarşısında Paşinyanın aksentlə danışması deyil. Nəticədə ingilis dili ana dilimiz deyil və bunun üçün tərcüməçilər var. Acınacaqlısı odur ki, Paşinyan Əliyevin hücumları qarşısında duruş gətirə bilmədi. Artıq politoloqlar danışır ki, Münhendə Nikol yazıq və köməksiz, Əliyev isə inamlı idi. Paşinyan dünyanın gözü önündə "Qarabağın öz müqəddəratını təyin etməsi" prinsipindən qətiyyətlə danışmalı idi, lakin bu olmadı. Əliyev, faktiki olaraq, onu ağır yumruqlara qonaq etdi və budur, "nokaut". Gülməlisi odur ki, Paşinyanı dəstəkləyən ekspertlər, jurnalistlər elə danışırlar, sanki Münhendə divara qısılan Əliyev idi. Onlar sadəcə gic kimi görünürlər. Bəlkə onlar düşünür ki, insanlar kordur və həqiqətin nə olduğunu bilmirlər?".

Öz növbəsində, başqa bir poliotloq David Mkrtçyan hesab edir ki, Paşinyanın uğursuzluğu hazırkı hökumətin də imicini zərbə altına qoyub: "Paşinyanın rüsvayçı hazırlıqsızlığı hətta onun tərəfdarları üçün də aydın oldu, hazırkı hakimiyyəti çətin vəziyyətə saldı. İndi vəziyyəti düzəltmək üçün Paşinyan növbəti populist addım atmağa qərar verib. O, Qarabağ probleminin nizamlanması üzrə özünün "Münhen prinsipləri" barədə bəyanat verib. Yəqin ki, Paşinyan öz tərəfdarlarına onların təbliği barədə göstəriş verəcək ki, hansısa üsulla Münhendəki davranışını unutdursun. Lakin bu, növbəti populist addımdır. Bundan başqa, artıq tamamilə aydındır ki, o, saman çöpündən tutaraq bu rüsvayçı vəziyyətdən çıxmağa can atır. Paşinyanın öz ölkəsini gülməli vəziyyətə salması erməniləri utandırıb. Təəssüf ki, Paşinyanın sözləri təkcə Məmmədyarovda yox, hər halda, Münhen, Moskva, Vaşinqton, Parisdə və digərlərində də gülüş doğurub. Artıq Paşinyanın kim olduğu hamıya məlumdur. Reallıq belədir".

Ermənistanın sabiq baş naziri Xosrov Arutyunyan isə qeyd edir: "İlk təəssürat: Paşinyan sanki beynəlxalq ictimaiyyət qarşısında çox orijinal, bir çoxlarından, xüsusən Ermənistanın keçmiş rəhbərlərinin mövqelərindən fərqli yanaşma ilə dayanmaq istəyirdi. Xüsusilə söhbət danışıqlar prosesində yersiz olan "mikroinqilab" terminindən gedir. Bu termin mahiyyət etibarilə heç bir çərçivəyə sığmırdı və qarışıqlıq yaradırdı. Söhbət kreativ olmayan addımlardan gedirsə, onda bu cür də danışmaq lazımdır. Lakin "inqilabın" buna heç bir dəxli yoxdur. O öz fikirlərini dəqiq ifadə edə bilmədi". Debatların gedişinə tamamilə ədalətli qiymət verən Paşinyanın sələfi əlavə edib ki, uğursuzluğun səbəbi, mütəxəssislərin də qeyd etdiyi kimi, Paşinyanın beynəlxalq tədbirlərə uyğun gəlməyən ingiliscə səviyyəsi ola bilər: "Amma məsələ dil bilməkdə deyil, arqumentlərin zəif olmasındadır!. Əliyev fikirlərində dəqiq idi: problem ərazi ilə bağlıdır, mübahisə Ermənistanla Azərbaycan arasındadır, Ermənistan bizim torpaqlarımızı işğal edib. Hər şey son dərəcə dəqiq ifadə edilib. Təəssüf ki, Əliyev öz fikirlərində Paşinyana nisbətən daha dəqiq və cəsarətli idi. Belə təəssürat yaranırdı ki, Paşinyan bu görüşə pis hazırlaşıb, ağlına gələn sözləri və fikirlərini düşünmədən çatdırır. Beynəlxalq ictimaiyyətin gözləntiləri barədə suala cavab qeyri-kafi oldu, çünki münaqişənin hərb yolu ilə həlli olmadığı bəyanatı çoxdan qəbul edilib, onun davamı da olmalıdır". Ermənistanın "Alternativ layihələr qrupu"nun üzvü, politoloq Vahe Hovhannisyan isə məsələyə belə yanaşır: "Münhendə baş tutmuş Paşinyan-Əliyev tok-şousu və bunun media müzakirələri bir neçə dəqiqləşdirmə aparmağa vadar edir". O qeyd edib ki, Ermənistan cəmiyyəti, o cümlədən Paşinyanın seçdiyi kütlə nə baş verdiyini başa düşmək istəyir: "Bu, siyasi baxışlardan asılı olmayaraq hər kəsi narahat edən, ümumilikdə təhlükəsizliklə əlaqəli olan məsələdir.

Münhendən sonra Paşinyanın komandası yeraltı vəziyyətə düşdü. Onun 88 nəfərlik şanlı parlamentindən heç bir səs çıxmadı. Onlar öz liderlərini qoruya bilmədilər. Bu təkcə Paşinyanın faciəsi deyil, həm də o deməkdir ki, ölkədə siyasi çoxluq, siyasi sistem, siyasi düşüncə yoxdur və buna görə də böyük uğursuzluğun qarşısını almaq üçün zəmanət mövcud deyil. Və bu çox ciddi narahatlıq doğuran məsələdir. Onu ehtiva edir ki, bugünkü siyasi düşüncə və resurslarla ölkə irəliləyə bilməz".

Bütün bunlar Münhen prosesinə Ermənistanda hansı münasibət sərgiləndiyini aydın təsəvvür etməyə imkan verir. Dünya isə bir daha şahidlik etdi ki, panel müzakirələr zamanı Azərbaycan prezidenti çox dəqiq, səlis və məntiqli çıxışı ilə işğalçının kim olduğunu göstərdi. Beynəlxalq miqyasda bir daha təsdiq edildi ki, Ermənistan öz ordusunu Dağlıq Qarabağdan və işğal etdiyi digər Azərbaycan torpaqlarından çıxarmalıdır. Azərbaycan problemin kökündə nəyin durduğunu dünya ictimaiyyətinə çatdırdı. Bir daha bilindi ki, Dağlıq Qarabağ və işğal altında olan rayonlar beynəlxalq hüquqla təsdiq olunmuş Azərbaycan torpaqlarıdır. Beynəlxalq ictimaiyyət onu da yaxşı başa düşür ki, Azərbaycan indi 30 il bundan əvvəlki ölkə deyil. Diplomatik, hərbi, siyasi, iqtisadi və digər istiqamətlərdə Azərbaycan kifayət qədər güclənib. Bütün bunların münhendə bir daha öz təsdiqini tapması isə erməni tərəfinin narahatlığını artırıb. Onlar bilir ki, Paşinyan kimi avantürist bir liderlə Qarabağ məsələsində Azərbaycana uzun müddət müqaviəmt göstərmək mümkün deyil. Elə bu səbəbdən Münhen görüşündən sonra Paşinyana qarşı tənqidi münasibətlər səngimir. Bu həm də Azərbaycan diplomatiyasının qələbəsidir. Hər halda hadisələrin gedişi göstərir ki, Münhen debatı istənilən halda Qarabağ münaqişəsinin sonrakı gedişinə öz təsirini göstərəcək. Çünki məhz bu olay erməni tərəfinin indiyə qədər gətirdiyi bütün arqumentlərin əsassızlığını aydın nümayiş etdirdi. Hesab edilir ki, yaranmış vəziyyətdə qarşıdakı dövr ərzində erməni tərəfi dünya miqyasında Qarabağ məsələsində daha çox müdafiə mövqeyinə çəkilməli olacaq. Amma bu da ermənilərin Qarabağ məsələsində uduzmasını əngəlləmək iqtidarında deyil.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Paşinyanla ordunun Baş Qərargah rəisinin də döyüşü başlayır

**İşğalçı ölkənin ordusunda baş verən son əsgər itkiləri burada ordu ilə hakimiyyət arasında dərin bir uçurumun olduğunu da üzə çıxarıb. Hadisələrin təhlili göstərir ki, orduya diqqət sarıdan Nikol Paşinyan iqtidarı sələflərindən heç nə ilə fərqlənmir. Elə bu fonda erməni ordusunda xaos davam edir.**

Cari ilin ötən dövrü ərzində qeyri-döyüş şəraitində 13 erməni əsgərinin həyatını itirməsi isə cəmiyyətdə Paşinyan iqtidarına qarşı yeni etirazların başlanmasına rəvac verib. Vəziyyətdən çıxış yolu kimi Nikol Paşinyan bu ölkənin ordu sistemində kadr dəyişikliyinin olacağının anonsunu verib. Artıq Ermənistan hökumətində keçirilmiş xüsusi müşavirədən sonra Müdafiə Nazirliyinin bəzi yüksək vəzifəli şəxsləri istefaya göndərilib. Bura Ermənistan hərbi polisinin rəisi Artur Bağdasaryan və Silahlı Qüvvələrin şəxsi heyətlə iş üzrə İdarəsinin rəisi, general-mayor Alik Aleksanyan da daxildir. Dağlıq Qarabağda isə qondarma rejimin "müdafiə naziri", general-leytenant Karen Abramyan öz postunu tərk edib. Onun yerinə birinci müavini, baş qərargah rəisi Cəlal Arutyunyan təyin olunub. Arutyunyanın vəzifəsini isə "müdafiə nazirinin" birinci müavini olan David Manukyan tutub.

Erməni mediası yazır ki, Paşinyan Ermənistan Silahlı Qüvvələrinin Baş qərargah rəisi Artak Davtyanı da istefaya göndərmək arzusundadır. Amma sonuncu buna ciddi şəkildə müqavimət göstərir. Belə ki, Davtyan qeyri-döyüş vəziyyətində baş verən əsgər ölümlərinin sayının artması fonunda istefaya getməyi düşünmür. O, parlamentdə çıxışı zamanı bildirib ki, hərbçilərin dəfn mərasimlərində iştirak edib, həmçinin hərbi hissələrə baş çəkib. Baş qərargah rəisi qeyd edib ki, Silahlı Qüvvələrdə kadr dəyişikliyi baş verir və cəmiyyət bu barədə məlumatlandırılacaq. Amma onun özü istefaya hazırlaşmır. Bu isə Davtyanın Ermənistan baş naziri ilə toqquşması deməkdir.

Paşinyanın nəzarətində olan Ermənistan parlamentinin deputatları bu fonda Artak Davtyanla görüşdən narazı qaldıqlarını açıqlayıblar. Məlumata görə, Davtyanın parlamentdə çıxışı olduqca gərgin və ağır keçib. Erməni mediası yazır ki, Davtyan parlamentin deputatlarına orduda əsgər ölümü hadisələrini təqdim edib, deputatlar cavabdehlər məsələsini qaldıranda isə o, baş verənləri öz nöqsanı hesab etməyib. Bu hal iclasda iştirak edən deputatlar arasında çaxnaşmaya səbəb olub. Qeyd edək ki, 2019-cu il iyulun 4-də təsdiqlənmiş nizamnaməyə əsasən, Ermənistan Silahlı Qüvvələrinin Baş qərargah rəisi qoşunla bağlı hər bir məsələyə görə cavabdehdir. Ermənistan parlamentinin deputatları aydın şəkildə başa salıblar ki, Davtyandan narazıdırlar və onun sayılı günləri qalıb. Qeyd edək ki, Davtyan 2008-ci ilin "1 Mart" hadisələri vaxtı Ermənistan Silahlı Qüvvələri Baş Qərargahının Əməliyyat idarə rəisi olub və hətta "1 Mart" hadisələri zamanı Qərargah rəisi Yuri Xaçaturova tabe olan şəxs kimi dindirilib. Bu fonda Paşinyan, uzun müddətdir ki, ondan yaxa qurtarmağa çalışır. Amma sonuncu müqavimət göstərməkdə israrlıdır. Hesab edilir ki, Davtyan tutduğu mövqedən istifadə edərək Paşinyana qarşı ordunun timsalında müxalifət formalaşdırmağı düşünür. Erməni mediası yazır ki, bu prosesdə ona Ermənistan Milli Təhlükəsizlik Xidmətinin sabiq direktoru Artur Vanetsyan da yaxından kömək edir. Vanetsyan artıq siyasi partiya yaradaraq bəzi siyasətçiləri öz tərəfinə çəkmək istiqamətində də fəal hərəkətə keçib. Eyni zamanda o, polisdə və orduda da özünə dayaqalar yaradaraq Paşinyanı devirməyi hədəfləyir. Hesab edilir ki, məhz bu fonda ordu ilə Paşinyan arasında ziddiyyət daha da dərinləşəcək. Artak Davtyanın Paşinyanın uzaqlaşdırıdığı generalları öz ətrafına cəmləşdirmək niyyəti də prosesin hansı istiqamətdə gedəcəyini indidən təsəvvür etməyə imkan verir.



Digər tərəfdən Paşinyanın orduya münasibəti cəmiyyətdə də hakimiyyətdən narazılığı artırır. Ekspert Nerses Aloyan Paşinyan iqtildarının siyasəti nəticəsində orduda əsl dilənçi bir vəziyyətin hökm sürdüyünü bildirir: "Ay ərzində dövlətdən cəmi 3400 dram müavinət aldığı halda, kobud hesablasaq, bu, əsgərin siqaret pulu belə etmir. Amma Paşinyan iqtidarı bunları görməzdən gəlir". Bundan əlavə, işğal edilmiş ərazilərdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçularına göstərilən tibbi və digər xidmətlərin aşağı səviyyədə olması ilə də bağlı Müdafiə Nazirliyinə yüzlərlə şikayət daxil olur. Sabiq prezident Serj Sarksiyanın sədri olduğu Respublika Partiyasının sədr müavini Eduard Şarmazanov da orduda vəziyyətin ağır olduğunu vurğulayır: "Ermənistan Müdafiə Nazirliyi hələ də xalqa yalan danışır. Orduda baş verən neqativ hallar gizlədilir. Əsgər öldürülür, açıqlama verilmir. Demək ki, müdafiə naziri öz işinə səhlənkar yanaşır. Hakimiyyətdəki insanlar xalqı aldatmaqla məşğuldur. Biz bu gedişlə Qarabağ məsələsində də mövqelərimizi müdafiə edə bilməyəcəyik. Baş verənləri Azərbaycan tərəfi də aydın görür, qiymətləndirir".

**Erməni ekspert Hranuş Xaratyan ordunda son zamanlar baş verən hadisələrə toxunarkən bildirir ki, qısa müddət ərzində müxtəlif hərbi hissələrdə eyni formalı hadisələrin təkrarlanması mümkünsüz görünür:"Bu nəinki ehtimal edilən qondarma diversantlar, həmçinin çox narahat olan insanlar tərəfindən geniş şəkildə yayılır. Hətta bu hal üçün, hesab edirəm ki, hakimiyyət və ordunun hüquq sistemi ilk növbədə bu problemi çox cəld anlamaq və həll etmək məsələsində maraqlı olmalıdır. Amma bu baş vermir".**

***Nahid SALAYEV***

# Erməni saytlarında gənc bakılı qızların erotik reklam şəkilləri - Bakıda yaşayıram, adım Eva, 28 yaş, kişi axtarıram... Mənəvi terrorun qarşısını kim almalıdır...

**Ermənilər Azərbaycana qarşı hər zaman müxtəlif yollarla təxribat həyata keçirməyə cəhdlər edirlər. Əksər vaxtlarda bu təxribatın sükanı erməni mediasının əlində olur və onlar ölkəmizə, xalqımıza qarşı ən ağlagəlməz şəkildə qara kampaniyalar aparırlar.**

Son aylar erməni xəbər saytlarında Azərbaycana qarşı yeni təxribat üsulu seçilib. Sözün əsl mənasında, bizə qarşı mənəvi terror olan bu halın qarşısının hansı şəkildə alınmalı olduğu müxtəlif suallar doğurur. Müşahidlərimizə görə, erməni saytlarının bir çoxunda Azərbaycan qızlarının erotik şəkilləri, yarımçılpaq və çılpaq şəkildə olan fotoları reklam edilir. Şəkillərin altında qızların yaşı, yaşadığı şəhər, milliyyəti qeyd edilir. Məsələn, erotik şəkli reklama çıxarılan qızlardan birinin adının Eva, yaşının 28 olduğu, özünün isə Bakıda yaşadığı qeyd edilir. Erməni saytları 28 yaşlı "bakılı qız"ın özünə kişi axtardığını reklam edir. Azərbaycan qızlarının erotik fotolarını və onların "seksual xidmət göstərdiklərini" əks etdirən erməni saytları bununla bizə qarşı növbəti təxribat, mənəvi terror edirlər. Bu mənəvi terrorun qarşısının alınması üçün, heç şübhəsiz ki, aidiyyəti qurumlar aktiv olmalıdırlar.

"Vəfa" Sosial-İctimai Birliyinin sədri Fatimə Hacıbəyli "Bakı-Xəbər"ə bildirdi ki, ümumiyyətlə, internet resurslarında işimizi həddən artıq zəif qurmuşuq. F.Hacıbəylinin sözlərinə görə, ermənilər bizə qarşı ideoloji təxribatları və mənəvi terror aktlarını əsasən internet üzərindən reallaşdırırlar. "Erməni mediası zaman-zaman Azərbaycana qarşı bu və ya digər istiqamətdə təxribatlar həyata keçirib. Azərbaycan qızlarının hədəfə alınması da bu qəbildəndir. Bilirsiniz ki, ermənilər tarixdə qədim sənətlə məşğul olan ilk toplumdur və dünyada bu işlə əsasən erməni qızları, qadınları məşğul olublar. Təkcə Kim Kardaşyanın adını çəkmək kifayət edir ki, dediklərimin həqiqiliyi sübut olunsun. Bu gün internet əsridir, insanlar sosial şəbəkələr, müxtəlif kanallar, saytlar, portallar vasitəsilə saysız cinayətin, təxribatın, mənəvi terror hadisəsinin baş verdiyini müşahidə edirlər. Ermənistana aid xəbər saytlarında "azərbaycanlı" qızların erotik fotolarının yayılması da təxribatdır, ölkəmiz haqqında dünyada yanlış rəy yaratmağa xidmət edən məsələdir. Erməni saytlarının "bakılı qızlar" kimi təqdim etdiyi o fotolar başqa ölkələrin, lap elə ermənilərin özlərinin qızlarına da aid ola bilər, sadəcə, onlar bunu "azərbaycanlı" kimi təqdim etməklə bizə qarşı çirkin niyyətlərini ortaya qoyurlar. Fikrimcə, bu bizə qarşı mənəvi terrordur və bu terrora qarşı əlaqədar dövlət qurumları, QHT-lər öz etirazını bildirməli, həmin saytların bloklanması üçün işlər görməlidirlər. Dövlət qurumları erməni saytlarının Azərbaycan qızlarına qarşı mənəvi terror həyata keçirməsi ilə hansısa bir vasitə ilə mübarizə aparmalıdırlar. Biz belə məsələlərdə aktiv olmalıyıq" - deyə F.Hacıbəyli qeyd etdi.

O, həmçinin, bildirdi ki, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi bu məsələni xüsusi nəzarətdə saxlamalıdır.




***Fatimə Hacıbəyli:** "...bizə qarşı çirkin niyyətlərini ortaya qoyurlar"*

***Komitə:** "Bu, ermənilər tərəfindən məqsədli şəkildə törədilən təxribatdır"*

Bəzi ekspertlər isə hesab edirlər ki, o reklamlar "Google" tərəfindən yayılır və bütün dünya saytlarında avtomatik yerləşdirilir (?).

Başqa ekspertlər isə hesab edirlər ki, Ailə, Qadın və Uşaq Problemləri Komitəsi erməni saytlarının bu təxribatlarını araşdırmalı və onlara adekvat cavab verməlidir. Məsələ ilə bağlı komitə ilə əlaqə saxladıq. Komitənin İctimaiyyətlə əlaqələr şöbəsindən "Bakı-Xəbər"ə bildirdilər ki, bu məsələni araşdırmaq və ona münasibət bildirmək komitənin səlahiyyətinə aid deyil: "Bu, ermənilər tərəfindən məqsədli şəkildə törədilən təxribatdır. Bu sırf təxribat xarakterlidir. Amma onunla bağlı hər hansı bir araşdırma aparmaq, ona münasibət bildirmək komitənin səlahiyyətinə aid deyil".

***İradə SARIYEVA***

# Putin Kremlin ən qaranlıq adamı, gizli strateq Surkovu vəzifəsindən azad etdi



**Rusiya prezidenti Vladimir Putin baş məsləhətçilərindən biri, ölkənin ən güclü siyasi fiqurlarından hesab edilən və Rusiyanın Ukrayna siyasətinin memarı olan Vladislav Surkovu vəzifəsindən azad edib.**

55 yaşlı Surkovun işdən azad olunması xəbəri Kremlin rəsmi saytında yer alıb, lakin onun yeni işinin nə olacağına dair heç bir məlumat verilməyib.

Surkov son illərdə Kremlin Ukrayna siyasətinə rəhbərlik edərək, keçmiş Sovet respublikasının şərq bölgələrində Donetsk və Luqanskda "xalq respublikaları"nı yaradan separatçılarla sıx əlaqədə olmuşdu.

Onu Kremlin baş ideoloqu və Ukrayna və Moskvanın dəstəklədiyi separatçılarla münasibətlər üzrə baş mütəxəssis kimi vəzifədə 61 yaşlı veteran siyasətçi və Putinin yaxın müttəfiqi olan Dmitri Kozak əvəz edəcək.

Kreml administrasiyası rəhbərinin birinci müavini kimi Surkov Rusiya parlamentinin marionet bir quruma çevrilməsi, medianın nəzarət altında saxlanması və müxalifətin neytrallaşdırılmasına kömək etmişdi.

Gizli strateq parlamentdəki siyasi partiyalara və Putinə daim qələbə qazandıran seçki kampaniyalarına nəzarət edirdi.

2011-ci ildə yenidən hökumətə gətirildikdən və iki il baş nazirin müavini vəzifəsində çalışdıqdan sonra Surkovun nüfuzu azalmışdı.

2013-cü ildə Surkov yenidən Kremlə qayıdaraq, Rusiyanın Ukrayna və digər postsovet ölkələri ilə münasibətlərində Putinin müşaviri vəzifəsini icra etmişdi.

Moskva 2014-cü ildə Krımı ilhaq etdiyi və Ukraynanın şərqindəki rusdilli separatçılara dəstək verdiyi zaman Surkov yenidən diqqət mərkəzinə olmuşdu.

Separatçılar Surkovun Ukraynadan ayrılmağa çalışan "dövlətlərin" rəhbərliyinə məsləhət verdiyini açıq etiraf etmişdilər.

**Qardaş Türkiyə və Rusiyanın Suriyada münasibətlərinin bundan sonra hansı istiqamətdə inkişaf edəcəyi indi daha çox diqqət mərkəzində yer almağa başlayıb. Çünki tərəflərin Suriyada əməkdaşlığı artıq İdlibdə dalana dirənib.**

# Ərdoğan-Putin görüşündə nəticə olmasa, İdlibdə iki dövlətin müharibəsi başlayacaq...

Bu fonda Ankara savaşa başlayacağını anons edir, Rusiya isə bunun yolverilməz olduğunu bildirir.

Tərəflərin təması hələ ki, nəticə verir. Türkiyə prezidentinin sözcüsü İbrahim Qalın da faktı təsdiq edir. O bildirir ki, İdlibdə qarşıdurmanı əngəlləmək üçün Moskva türk ordusunun yerdəyişmə etməsini istəyir. Amma bu, Ankara üçün qəbuledilməzdir: "İdlibdə müşahidə məntəqələrimizin yerinin dəyişdirilməsi Türkiyə üçün günün müzakirə mövzusu deyil". İbrahim Qalın deyib ki, rusiyalı diplomatik heyətlə Türkiyə tərəfinin apardığı son danışıqlardan rəsmi Ankaranı qane edəcək nəticələr olunmayıb:"Bizə təqdim edilən xəritə və bəzi kağızları qəbul etmədik. İdlibi və bögədəki insanları qorumaq üçün əraziyə hərbi güclərimizin göndərilməsi və hərbi fəaliyyətimiz davam edəcək. Çünki Türkiyə sərhədlərinə köç axını davam edərkən biz buna tamaşaçı qala bilmərik. Hərbi qüvvələrimizə hər hansı şəkildə hücumlar bir daha təkrarlanarsa, biz yerindəcə və yetərincə cavabını verəcəyik". Prezident sözçüsü deyib ki, Suriya mövzusunda Türkiyənin əsas istəyi Soçi razılaşmasının şərtlərinə əməl olunmasıdır.




Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan isə daha sərt mövqe sərgiləyib:

"Suriyanın İdlib şəhəri ilə bağlı problemi həll etmək üçün Türkiyə və Rusiya nümayəndə heyətlərinin Mosvada keçirilən görüşü nəticəsiz başa çatıb. Çünki təklif olunan variant bizi qətiyyən qane etmir. Təəssüflər olsun ki, indiyə qədər istədiyimiz nəticəni əldə edə bilməmişik. Türkiyə İdlib məsələsində özünün planını həyata keçirmək üçün bütün hazırlıqlarını görüb. Hər an əməliyyatlara başlaya bilərik. Daha açıq formada desəm, İdlibdə əməliyyatlar hər an başlaya bilər". Ərdoğan onu da vurğulayıb ki, Suriyada Bəşər Əsədə sadiq qüvvələrin hücumları nəticəsində son günlər Türkiyənin 15 əsgəri şəhid olub, daha 45 hərbçi yaralanıb. Bu durumda Suriya ordusuna Türkiyənin cavab zərbələri Rusiyanı qane etmir. Digər tərəfdən Əsəd qüvvələri Rusiya ordusu ilə birgə hərəkət edir. Elə bu səbəbdən onlara qarış əməliyyatlar Rusiya qüvvələrinə qarşı da fəaliyyət sayılır. Bu səbəbdən Moskva türk ordusunun İdlibi tərk etməsini və ya yerdəyişmələr etməsini istəyir. Belə vəziyyətdə Rusiya rəsmiləri Ərdoğanın İdlib bölgəsindəki vəziyyətlə bağlı çıxışına da maraqlı münasibət bildirib. Rusiyanın xarici işlər naziri Sergey Lavrov Suriya ordusunu dəstəklədiklərini deyərək tərəfləri İdlibə dair razılaşmaya əməl etməyə çağırıb. O, eyni zamanda, Rusiyanın Türkiyə ilə yüksək səviyyədə əməkdaşlığa hazır olduğunu söyləyib. Rusiya prezidentinin sözçüsü Dmitri Peskov isə rəsmi Kremlin Ankara ilə dialoqu davam etdirmək niyyətində olduğunu vurğulayıb: "Türkiyənin Suriya ordusuna qarşı hərbi əməliyyata başlaması ən pis ssenari ola bilər. Ona görə də Rusiya İdlibdə vəziyyətin gərginləşməməsi üçün Türkiyə ilə təmaslarını davam etdirəcək".

Bu durumda türk Volkan Özdəmir bildirir ki, İdlib böhranı ilə bağlı yeni barışıq martın əvvəlində Rəcəb Tayyib Ərdoğanla rusiyalı həmkarı Vladimir Putin arasında əldə edilə bilər: "Türkiyə Suriyada daha bir hərbi hücuma cəhd edərsə, Qərb düşərgəsindən kömək gəlməyəcək. Bu məsələdə Türkiyə ilə Rusiyanın əlaqələrini dondurmaq və ölkəni təkrar Qərbin düşərgəsinə çəkmək olar. İdlibdə sıxışıb qalmaq Türkiyəyə Liviyadan daha baha başa gələ bilər". İdlib məsələsinin Şərqi Aralıq dənizi ilə əlaqəli olduğuna diqqət çəkən Özdəmir Türkiyənin vaxtilə rus hərbi təyyarəsini vurmasından sonra da tək qaldığını vurğulayıb. Özdəmir bildirib ki, liderlərin görüşündə İdlib böhranı həllini tapa bilər. Qeyd edək ki, Türkiyə XİN başçısı Mövlud Çavuşoğlu açıqlamasında rusiyalı həmkarları ilə İdlib görüşünün nəticə verməyəcəyi təqdirdə hər iki ölkə prezidentinin görüşə biləcəyi mesajını verib. Hesab edilir ki, Putin və Ərdoğan arasında razılıq əldə olunmasa, onda tərəflərin Suriyada savaşı qaçılmaz ola bilər. Düzdür, bunu tərəflərdən heç biri istəmir. Amma mövqelərindən də geri çəkilməyi düşnümrülər. Türkiyənin "Takvim" qəzeti belə vəziyyətdə savaşı istisna etmir: "Hazırda İdlib yalnız bizim deyil, bütün dünyanın gözünü, qulağını dikdiyi yerdir. Suriyanın İdlibdə türk hərbi hədəflərinə etdiyi hücumların mərkəzində, təəccüblü görünsə də, nə Dəməşq administrasiyası, nə Əsədin hərbçiləri, nə də komandirləri durur. Ortaya fərqli səbəblər, təhlillər qoysaq da, türk hərbçilərini hədəf almalarının ilk böyük səbəbi Liviyadır. Çünki ortada bir çox anlaşmanın olmasına rəğmən, Rusiya Türkiyənin Liviyada olmasından çox narahatdır. İki ölkə arasında bir çox strateji tərəfdaşlıq olsa da, Moskva Türkiyənin Liviya ilə bağlı atdığı addımlardan narahatdır. Bu dəqiqdir.

**ABŞ da Liviyada Rusiya ilə gizli bazarlıq etdiyi halda, Türkiyənin Liviyanın heç bir nöqtəsində olmasını istəmədi. İndi Suriyada başlayan gərginlik Türkiyə ilə Rusiya arasındakı önəmli anlaşmalara təsir edəcək. Əsəd bir sarayından o birinə keçərkən belə, Kremlin xəbəri olur. Bu səbəblə, "Əsəd rejiminin gücləri" adlandırılan qüvvələr, əslində İran və Rusiyanın bölgədəki qüvvələridir. Hücum edən də onlardır. Mütəxəssislərin də altını cızdığı kimi, İdlib çox çətin bölgədir. İdlib bir çox qrupun olduğu, həll yolunun isə olmadığı bir bölgə kimi tanınır. Vaşinqton da, Moskva da, hətta Tehran belə, Türkiyənin İdlibdə əməliyyata başlaması halında Liviyada səssiz qalacağını düşünür. Bu səbəbdən Ankara uzaqgörən gedişlər etməlidir".**

***Tahir TAĞIYEV***

# Cinayətkarlığın xəbərdarlığında ictimaiyyətin rolu

*Cəhalət və tərbiyəsizlik bütün cinayətlərin anasıdır. Onun toxumu Yer kürəsinə səpələnib.*

***Onore de Balzak***

**Cinayətkarlığın xəbərdarlığı və profilaktika konsepsiyasının ümumi məqsədi ictimai təhlükəli əməlləri, hər cür hüquqpozmaları və hüquqazidd halları doğuran səbəblərin aradan qaldırılmasından ibarətdir. Ona görə cinayətkarlıqla mübarizədə müəyyən konsultativ tədbirlərin həyata keçirilməsi zəruridir.**

İctimaiyyətin bu işə cəlb edilməsi mürəkkəb prosesdir, lakin mühüm əhəmiyyət kəsb edir. Ölkədə təhlükəsizliyin qorunmasında ictimai dəstəyi təmin etmək, hüquqazidd hallara reaksiya cəmiyyətin cinayət hüquq sisteminə və ədalət mühakiməsinə etibarını möhkəmləndirir. Vətəndaş məmnunluğuna bazis yaranır.

Azərbaycanın hüquq-mühafizə orqanları cinayətkarlığın xəbərdarlığı və onun ağır növlərinin azalması istiqamətində müəyyən mexanizmə və metodlara, habelə cəmiyyətin bu işə cəlb olunmasına səmtlənən böyük iş görür.

Uzun müddətdir ki, alimlər cinayətkarlıqla mübarizə istiqamətində xəbərdarlıq tədbirlərini həlledici amil kimi qəbul edirlər. Bu sahədə dünya təcrübəsinə diqqət yetirəndə məlum olur ki, siyasi, iqtisadi və ictimai quruluş dəyişdikcə insan cəmiyyətinin əsas qanunları dəyişməz qalır. İki milyon il bundan əvvəl insanlar yaxşı həyat axtarışı dalınca hansı arzu və istəklə gedirdilərsə, ehtiyaclarını ödəmək, şəxsi maraqlara üstünlük vermək üçün necə çalışırdılarsa yenə həmin hal təkrarlanır. Evolyusiyanın miqyası nə qədər geniş olsa da dünya yerində sayır, irəliləyə bilmirik.

QHT-lər, cəmiyyətin digər təbəqələri, elm və təhsil müəssisələri də bu prosesdə iştirak edirlər. Azərbaycan dövləti, insanların hüquq və iradə azadlıqlarına, ekstremizm və dini radikalizmə, cəmiyyətdə vahimə doğuran terrorçuluğa,narkomanlığa və digər arzuolunmaz təzahürlərə qarşı mübarizədə vətəndaş cəmiyyətinin müəyyən qruplarına maliyyə dəstəyi göstərir. Həyata keçirilən tədbirlər, ələlxüsus insanların alqı-satqısı, müasir köləlik-insan alveri cinayətlərinin və sosial bəla olan narkomanlığın profilaktikası barədə icra olunan layihələr əhali arasında müsbət rezonansla yadda qalır. Tədbirlər əksər hallarda ərazi üzrə polis orqanlarının, ictimaiyyət nümayəndələrinin, KİV-in, ictimai şuraların iştirakı ilə həyata keçirilir. Vəziyyət həmişə olduğu kimi DİN kollegiyasının, İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Koordinatorun nəzarətində olur. İnsan alveri qurbanlarına birdəfəlik müavinət verilir, müəyyən qismi işlə təmin edilir, peşə kurslarına göndərilir, huquqi və psixoloji yardıma ehtiyacı olan qurbanlara tibbi xidmət göstərilir. Dövlət büdcəsindən qurbanların reabilitasiyasına il ərzində 100 mindən çox vəsait sərf edilir. Bütün qeyd olunanlar dövlətin cinayətkarlıqla mübarizə siyasətinin, habelə dövlətin konstitusiya üzrə ali məqsədi sayılan insan hüquq və azadlıqlarının təmin edilməsinin canlı təzahürüdür. Hər il vəziyyətin müqayisəli təhlili barədə Milli Məclisdə müvafiq hesabat verilir.

Bu baxımdan, ölkədə cinayətkarlığın qarşısının alınması fəaliyyətində polis orqanları hakim mövqeyə və rola malikdir desəm, yəqin ki, daha düzgün qəbul edilərdi. Prosesdə prokurorluq, ədalət mühakiməsi orqanlarının və digər dövlət orqanlarının xidmətini də danmaq olmaz.

Tarixən Polisin ictimaiyyətlə sıx təmasda olması cinayətkarlığın nəzarətdə saxlanmasında və xəbərdarlığı fəaliyyətində həmişə faydalı olub. Qənaətimə görə bu, DİO əməkdaşlarının peşəkarlığının təcəssümü kimi dəyərləndirilməlidir.

Polis əməkdaşının xidməti mundirində ərazidə olması, əhali ilə söhbəti profilaktikanı səciyyələndirən əlamətlərdir.

Hər bir məhkəmə prosesinin prosesual aktı, hakimin kollektivdə müzakirəyə çevrilən qərarları profilaktika və cinayətlərin xəbərdarlığı üçün "xəbərdarlıq fənəridir".

Cinayət təqibi, hüquqi yardımın göstərilməsi, ittiham olunanların pulsuz müdafiəçi ilə təmin edilməsi işi də bu sahədə mühüm fayda verir.

Sosial şəbəkələrin və KİV-lərin cinayətkarlığın xəbərdarlığı məsələlərində xidmətləri var.

Lakin bəzən az əhəmiyyət kəsb edən ictimai təhlükəli əməllərin "ağır" cinayətlər fonunda həyacanla təqdim edilməsi və yaxud ictimai münasibətlərə qəsd edən, xüsusilə ağır nəticələrə səbəb olan əməllərin subyektlərinin "qəhrəman" obrazında verilməsi bu işə ziyan vurur. Son zamanlar televiziyalarda yayımlanan seriallarda odlu silahın təbliğini, zorakılıq əlamətlərini əks edən epizodlar müəyyən insanların düşüncə tərzində və təfəkkürlərində neqativ dəyişikliklərə səbəb ola bilər. Belə seriallar telekanallarda yayımlanmamışdan öncə Baş Prokurorluğun, DİN-nin,




ƏN-nin rəyindən sonra "istehsalı" məqsədə uyğun olardı. Seriallarda məişət zorakılığını təbliğ edən kobud hərəkətlər ictimai şüurda neqativ oyanış üçün şərait yaradır. Ümumiyyətlə tamaşalarda sosial hadisələrin və ictimai mənəviyyata zidd belə halların qarşısını almaq üçün ciddi nəzarət lazımdır.

İstənilən verlişin yayılmasında "bu, televiziyaların hüququdur"- deyə düşünsək, nihilizmə yer ayırmış olarıq. "Vətəndaşların kanalları çevirmək hüququ var" - fikirləri də qəbuledilməzdir. İndi patriotizm ruhlu seriallara üstünlük verilməlidir. Müharibə hələ bitmədiyindən hüquqazidd halların aradan qaldırılması,vətənpərvərlik mövzuları, qəhrəmanlıq və şücaət səhnələri televiziyaların fəaliyyət istiqamətləri ilə sıx bağlı olmalıdır. Çünki bu sahələr üzrə dövlət siyasətinin mühüm təbliğatı məhz televiziyalarda aparılır. Cinayətkarlıqla mübarizə isə hamının işidir!

(Haşiyə çıxıram:Musiqili şouların çoxluğu dərdimizin başqa tərəfidir. Şoular və iştirakçılar o qədər reklam olunur ki, az qala hamı "şoumen" və ya "müğənni" olmaq həvəsinə düşür. Müğənnilik vətənə aludəlik və yaxud hələ vətənə sədaqət ruhunda davranmaq deyil. Baxın, müğənnilər bəzən studiyalara xaltalı itlə gəlirlər. Bu, geniş ictimaiyyətə qatı hörmətsizlikdir. Alkoqollu içkilərin təbliği televiziyaların fəaliyyətini tənzimləyən normativ hüquqi aktlara zidd olsa da, davam edir.Unutmayaq ki, alkoqollu içkilərin qəbulu bəzən ağır cinayətlərlə də yadda qalır. Televiziyalarda bu qədər sərbəstliyə ehtiyac varmı?)

**"Harada qanun yoxdursa, orada cinayət də yoxdur"**

***Apostol Pavel (Romalılara müraciətindən)***

K.Marks və F.Engels qeyd edirdilər ki, ağıllı, müdrik qanunvericilər cəzalandırmaqdan çox cinayətlərin xəbərdarlığına üstünlük verməlidirlər. Qanunlar bir qayda olaraq xalqın iradəsini oxşamalıdır. Qanunların məqsədi isə ictimai münasibətləri tənzimləmək, xalqın rifah halının yaxşılaşdırılmasına və həyat səviyyəsinin yüksəldilməsinə xidmət etmək, dövlətin təməli ətrafında xalqın vahidliyini səfərbər etməkdən ibarətdir.

Ümumiyyətlə, profilaktik fəaliyyət 2 mərhələni əhatə etməlidir. Birinci mərhələdə həyata keçirilən tədbirlər hüquqpozmanın subyektinin, hüquqazidd əməlləri doğuran səbəb və şəraitin öyrənilməsinə yönəlməli, ikinci mərhələdə isə müvafiq profilaktik tədbirlərin işlənib hazırlanması nəzərdə tutulmalıdır. Belə təsəvvürlər elmdə birdən-birə yaranmayıb. Əsrlər boyu insan ağlı cəmiyyətdə baş verən hüquqazidd əməllərin səbəblərini aşkar etmək və bunun qarşısını almaq üçün vasitələr axtarışında olub. Ona görə,hüquqpozmaların obyektiv səbəblərinin mövcudluğu haqda təsəvvürlərə əsaslanan sosial-profilaktik yanaşma təbii hal kimi anlaşılmalıdır.

Qədim Hind hüquq ədəbiyyatında əsas xəbərdarlıq vasitəsi kimi cəzanın xofuvahiməsi dururdu. Cəzanın sərtliyi cinayət törətməyə meylli olan şəxsləricəhalətin meyvəsi olan pis əməllərdən çəkindirməyə təsir edə bilir.

Manu qanunlarına görə, yalnız cəzanın xofu hər bir canlını xeyirxahlığa xidmət etməyə istiqamətləndirə və zidd "vəzifələrin" icrasından kənara çəkə bilərdi. Bu borcun təmin olunması iki sistemə; bir tərəfdən etik normalara, Uca Allahın gücünə; digər tərəfdən isə siyasi vasitələrə əsaslanan yol ilə həyata keçirilərdi.

Əgər qədim Hindistanda hüquqpozmalarla mübarizədə əsas vasitə kimi sərt cəzanın tətbiqindən istifadə edilirdisə, Qədim Çin mütəfəkkirləri bu sahədə mühüm vasitə kimi tərbiyənin roluna üstünlük verirdilər.

Cəzanın tətbiqi bu gün də, hüquqi metod kimi əhəmiyyətini saxlasa da, tərbiyəvi faktorların daha çox inkişafı və miqyasının böyüməsinə dair mülahizələr vacib amil olaraq qalır. Məsələn: Qədim Çin mütəfəkkiri Konfutsi və onun tərəfdarlarının nəzərinə görə, əgər insanları tərbiyə etməyib cəzalandırmağa üstünlük versək, cəzalandırılanların sayı artacaq, lakin kökü kəsilməyəcək; və yaxud, tərbiyə edib cəzalandırmasaq bədnam əxlaqlı və tərbiyəsi qüsurlu olanlar cəzasız qalacaq və sayca artacaqlar.Bu mənada Onore de Balzakın təbirincə "Cəhalət, mədəniyyətsizlik və tərbiyəsizlik bütün cinayətlərin anasıdır. Ağılsızlıq, tamah və düşüncəsizlik də cinayəti doğuran əlamətlərdir".

Hüquq-mühafizə orqanlarının baş vermiş cinayətlər və onların iştirakçıları barədə KİV-də dərc edilən məlumatları profilaktik tədbirlərin davamıdır. Bu missiya hüquq mühafizə orqanları ilə KİV-in cinayətkarlığın miqyasının və dəhlizinin daralması ətrafında birgə həyata keçirilən xəbərdarlıq fəaliyyəti rəğbətləndirilməlidir.

Bir az öncə qeyd etdiyim kimi, bəzən KİV-də cinayətin subyektlərinin qəhrəman obrazında verilməsi, eyni mövzuya təkrar-təkrar qayıtması halları əhali arasında ikrah hissilə qarşılanır, onların keçmiş hərəkətləri dolayı yolla sanki mükafatlandırılır. Penitensiar xidmət müəssisələrində yayımlanan verilişlər bir tərəfdən çəkindirici ovqat yaradırsa, digər tərəfdən "cinayətkar dünyanın" təbliğinə və təşviqinə yönəlir. (Onlara oxşamaq istəyənlərin sayı artır) Burada korrektlərə ehtiyac var. Sovet dönəmini gözümüzün önünə gətirək... Belə verilişlərə yer verilərdimi?..

Diqqət çəkən başqa məqam da var: Xüsusilə ağır cinayətlərə ğörə ittiham olunan şəxslərin mühafizə altında qaçmasına dəstək verən, nə etdiyini və əməlinin nəticəsini də arzulayan, ictimai nüfüza malik zərif cinsdən olan bəzi həmvətənlərimiz həbs olunsalar da, sonralar onun əməli elə o səviyyədə olan qrup tərəfindən qəhrəman obrazında ictimaiyyətə çatdırılırdı. Heç kim onu cinayətinə görə qınamadı, "ayıb olsun" demədi. Əksinə... Bir səhvdir edib?! Axı, cinayətkara dəstək olmaq səhv deyil, vətəndaş vəzifələrinə və mənəvi dəyərlərə, ictimai mənəviyyata ziddir. Belə hərəkətlər ehtiyatsızlıqdan baş vermir, qəsdən törədilir.

***(Məqalə ilə geniş şəkildə baki-xeber.com saytında tanış ola bilərsiz)***

***Şəmsəddin ƏLİYEV***
***"Polisə Dəstək" İB-nin sədri***

# 2019-cu ildə bələdiyyələrdən şikayətlər fantastik dərəcədə çoxalıb - 46 faiz...

*Vüqar Tofiqli: "...vətəndaşlar daha çox bələdiyyələrdən şikayətlənirlər"*

**2019-cu ildə Prezident Administrasiyasına bələdiyyələrin fəaliyyəti ilə bağlı daxil olan müraciətlərin ümumi sayı əvvəlki illə müqayisədə 31 faiz, şikayətlərin sayı 46,4 faiz artıb.**



Bu barədə Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Süleyman İsmayılovun rəsmi mətbuatda dərc edilmiş məqaləsində bildirilib.

Qeyd olunur ki, bələdiyyələrin fəaliyyətindən narazılıq bildirilən müraciətlər Binəqədi, Xəzər, Lənkəran, Şəki, Ağcabədi, Beyləqan, Bərdə, Biləsuvar, Cəlilabad, Gədəbəy, Göyçay, İmişli, Masallı, Saatlı, Sabirabad, Şabran, Şamaxı, Şəmkir, Zaqatala, Zərdab, digər şəhər və rayonlardan daha çox olub: "Hər birimizin yaddaşında islahatlar ili kimi qalan ötən 2019-cu il həm də bələdiyyə seçkiləri ili olub. Cəmiyyət bələdiyyə seçkilərinə böyük maraq göstərib, 40 mindən çox namizədin arasından 1606 bələdiyyəyə 15 min 156 nəfər üzv seçilib. İnanırıq ki, yeni seçilmiş bələdiyyə üzvləri zamanla ayaqlaşacaq, cəmiyyətin inkişafı üçün səylərini əsirgəməyəcək, bu sahədə yol verilən qüsurların aradan qaldırılmasına çalışacaq, növbəti illərdə onların fəaliyyəti barədə şikayətlər minimuma enəcək".

Görünən odur ki, bələdiyyələrin fəaliyyətinin arzuolunan səviyyədə olmaması bu sahədən şikayətlərin artmasına səbəb olub. Maraqlıdır, bəs ekspertlər şikayətlərin sayının artmasını hansı səbəblərlə əlaqələndirirlər?

Məsələyə münasibət bildirən bələdiyyə sahəsi üzrə ekspert Vüqar Tofiqlinin sözlərinə görə, yerli özünüidarəetmə orqanlarından şikayətlərin artması bir sıra amillərlə bağlıdır: "Çox yaxşı olardı ki, bələdiyyələrlə bağlı şikayətlərin klassifikasiyası göstərilsin. Yəni şikayətlərin konkret nədən olduğu bilinməlidir. Torpaqlar, evlərin sənədləşdirilməsi, kommunal məsələlərlə bağlı şikayətlərin daha çox olub-olmadığı bəlli olmalıdır. Deməyim odur ki, bütün bunlar bəlli olsaydı, o zaman problemin kökündə dayanan məsələləri daha dəqiq göstərmək olardı. Ümumi olaraq onu deyə bilərəm ki, bu gün vətəndaşlar bir sıra problemlərlə bağlı daha çox bələdiyyələrə şikayət edirlər. Baxmır, bu, bələdiyyəyə aiddir, yoxsa digər qurumlara. Bələdiyyədən rədd cavabı alanda dərhal ondan şikayət edirlər. Elə məsələlər var ki, bunun bələdiyyəyə heç bir aidiyyəti yoxdur. Məsələn, haradasa kanalizasiya ilə bağlı problem yaranır. Vətəndaş bununla bağlı bələdiyyəyə üz tutur. Hansı ki, sözügedən problemi bələdiyyə həll edə bilmir. Bələdiyyə vasitəçi kimi həmin problemi yuxarı instansiyalarda qaldıra bilər. Ancaq kanalizasiya probleminin həlli bələdiyyənin imkanı xaricindədir.

*"Elə məsələlər var ki, bunun bələdiyyəyə heç bir aidiyyəti yoxdur"*

Çünki bələdiyyələrin maliyyə imkanları çox məhduddur. İkincisi, vətəndaşların maarifləndirilməsində problemlər var. Elə məsələlər var ki, bunlar bələdiyyənin səlahiyyətinə aid deyil. Ona görə də bu və digər məsələlərlə bağlı bələdiyyələr əhalini maarifləndirməlidirlər. Bu sahədə problem olduğuna görə vətəndaşlar daha çox bələdiyyələrdən şikayətlənirlər. Deməyim odur ki, vətəndaşlar bəzən hansısa problemlə əlaqədar bilmədən bələdiyyələri günahlandırırlar. Hesab edirəm ki, bütün bu problemlər həllini tapsa, bələdiyyələrdən bu dərəcədə şikayətlər olmaz".

***Vidadi ORDAHALLI***

# Azərbaycan ədəbi tənqid tarixi yeni təfəkkür işığında



**Məlum olduğu kimi, Azərbaycan ədəbi tənqidi haqqında bir sıra dəyərli əsərlər yazılsa da, bütövlükdə, onun tarixi təkamülü, inkişaf mərhələləri, metodoloji istiqamətləri ciddi, sistemli şəkildə öyrənilməyib.**

Bu isə, təbii olaraq, milli ədəbi-estetik fikir tarixinin real, gerçək mənzərəsinin yaradılmasına imkan verməyib. Bu mənada Bakı Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasının professoru Vaqif Sultanlının yazmış olduğu "Azərbaycan ədəbi tənqidi" (təkmilləşdirilmiş III nəşr) kitabı bu sahədə mövcud boşluğun aradan qaldırılması baxımından diqqəti çəkməkdədir. "Nurlar" nəşriyyatının nəşr etdiyi kitabın elmi redaktoru filologiya elmləri doktoru, professor Tofiq Hüseynoğludur.

Kitabda Azərbaycan ədəbi tənqidinin tarixi təkamülü və inkişaf yolu araşdırılıb. Burada, həmçinin, ədəbi tənqid tarixinin ümumi nəzəri məsələləri yığcam şəkildə nəzərdən keçirilib, onun yaradıcılıq metodları, istiqamətləri və janrları, ədəbi prosesdə rolu səciyyələndirilib. Müəllif ədəbi tənqidlə ədəbiyyatşünaslığın fərqi və qarşılıqlı əlaqələrinin səciyyələndirilməsinə xüsusi diqqət

yetirib, professional tənqidlə yanaşı, yazıçı tənqidi və oxucu rəyi barədə elmi-nəzəri mülahizələrini əks etdirib. Əsrin diqqətçəkən və onu əvvəlki araşdırmalardan xeyli dərəcədə fərqləndirən cəhətlərindən biri Azərbaycanın Güneyində və mühacirətdə yaranmış ədəbi-nəzəri irsin təhlil obyektinə çevrilməsidir. Məhz bu cür yanaşma müəllifə Azərbaycan ədəbi tənqidinin əhatə dairəsini real cizgilərlə canlandırmağa imkan verib.

V.Sultanlının uzun illərin yaradıcılıq axtarışlarının bəhrəsi olan "Azərbaycan ədəbi tənqidi" tədqiqatının ədəbi-nəzəri fikrin diqqətini çəkəcəyi şübhə doğurmur.

***İradə SARIYEVA***

# Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları saxta sənədlər əsasında maliyyə əməliyyatları aparan dəstəni ifşa etdi



**Daxili İşlər Nazirliyi Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi əməkdaşlarının həyata keçirdiyi növbəti uğurlu tədbir nəticəsində saxta sənədlər əsasında maliyyə əməliyyatları aparan şəxslər ifşa edilib.**

Belə ki, Baş İdarə əməkdaşları tərəfindən keçirilmiş tədbir zamanı əvvəllərməhkum olunmuş Bakı şəhər sakini Eldar Şahgəldiyev tutulub. Onun idarə etdiyi avtomobilə baxış zamanı 60-a yaxım firmaya məxsus möhür, sənədlər və çek kitabçaları aşkar olunaraq götürülüb. Tədbirin davamı olaraq Eldar Şahgəldiyevin saxta əməliyyatlar aparmaq üçün adlarına firmalar açdığı dəstənin digər üzvləri - oğlu Elnur Şahgəldiyev, tanışları Xəyal Quliyev və Oqtay Xudatov da saxlanaraq məsuliyyətə cəlb edilib. Eldar Şahgəldiyev ifadəsində əvvəllər də eyni qanunazidd əməllər etdiyinə görə məsuliyyətə cəlb edildiyini bildirib.

**Qeyd edilən faktla bağlı saxlanılan şəxslər barəsində Baş İdarədə qanunauyğun tədbirlər görülüb, araşdırmalar davam etdirilir.**

# Cəmiyyətimizdə test-Boloniya təhsil sistemi ilə bağlı yenidən əks müzakirələr başlayıb

**Müasir Azərbaycan təhsilinin 15 ildən artıq bir dövrü ali təhsil pilləsində Boloniya, orta təhsil sistemində isə kurikulum sistemi ilə idarə olunur. Tədris prosesi bu iki sistem üzərində qurulan Azərbaycan təhsilinin mənzərəsindən aydın görünür ki, hər iki sistemə münasibət birmənalı deyil.**

***Kamran Əsədov:*** *"Ən yaxşı halda, demək olar ki, bugünkü proqramlara yenidən baxmaq, günün tələbi ilə ayaqlaşmaq lazımdır"*

Azərbaycanda orta təhsildə kurikulum, ali təhsildə Boloniya sistemi olsa da, orta və ali təhsil müəssisələrində çalışan kadrların böyük əksəriyyətinin bu təhsil pillələrindən xəbərsiz olduğu məlumdur. Orta məktəbdə dərs deyən müəllimlərin xeyli hissəsi kurikulumun nə olduğunu, kurikulum əsasında dərs keçməyin yollarını bilmir. Kurikulumu dərk edə bilməyən müəllimlərin onu tədris zamanı tətbiq etməsi mümkünsüz olur.

Bu gün ali məktəblərin bir çoxu öz göstəriciləri ilə Boloniya səviyyəsinə uyğun gəlmir. Sirr deyil ki, ali məktəblərimizin çoxunda heç Boloniya sistemi doğru-dürüst oturuşmayıb.

Bir çox təhsil mütəxəssisi, eləcə də müəllimlər qeyd edirlər ki, Azərbaycan təhsilində Boloniya və kurikulum sistemi özünü doğrulda bilməyib. Odur ki, mütəxəssislərin çoxu bu sistemlərin ləğvinin tərəfdarı olaraq çıxış edir. Bəzi ekspertlər isə hesab edirlər ki, Boloniya və kurikulum sistemini ləğv etmək yox, onları təkmilləşdirmək lazımdır. Bu fikirdə olanlar qeyd edirlər ki, müasir dünya təhsili ilə ayaqlaşmaq adına zaman-zaman yeni və innovativ proqramlara müraciət etmək məcburiyyətindəyik.

Azərbaycanda Boloniya və kurikulum sisteminin ləğvinin labüd olduğunu deyən Təhsil Nazirliyi yanında İctimai Şuranın sədri, professor Şahlar Əsgərov hesab edir ki, hər iki sistemin Azərbaycan təhsilinə heç bir xeyri olmayıb, əksinə, bəzi fəsadlar gətirib.

Qeyd edilənə görə, hər iki sistem artıq uzun illərdir Azərbaycan təhsilində tətbiq olunmaqdadır. Belə ki, Boloniya sisteminə ölkəmiz hələ 2005-ci ildə qoşulub. Bu proses Avropa ölkələri təhsil sistemlərinin inteqrasiyası və ümumavropa ali təhsil məkanının formalaşdırılmasını nəzərdə tutur. Bu prosesin əsas tələblərindən biri ali təhsildə kredit sisteminin tətbiq edilməsidir. Bu sistem özündə əsas iki məsələni birləşdirir. Buraya tələbələrin mobilliyini təmin etmək və öz təhsilalma trayektoriyasını müstəqil müəyyənləşdirmək imkanları daxildir.

Boloniya prosesinə qoşulmaqla tələbələrin tədris yükünün həcmi azaldıldı, ənənəvi təhsil sistemində ixtisas üzrə tədris planında tam kursu bitirmək üçün tələbəyə 60-a yaxın fənnin tədrisi nəzərdə tutulurdusa, kredit sisteminə keçidlə əlaqədar olaraq təsdiq edilmiş yeni dövlət standartlarında fənlərin sayı və saatların miqdarı 2 dəfəyədək azaldıldı. Bu sistem üzrə müəllim daha məlumatlı olmalı, auditoriyaya daha hazırlıqlı şəkildə girməli, innovativ texnologiyalarda əks olunan faktlara və biliklərə yiyələnməlidir. Boloniya prosesi ali təhsilin iki - bakalavriat və magistratura səviyyələrində olmasını nəzərdə tutur.

Kurikulum sisteminə gəldikdə isə Azərbaycanda 2008-2009-cu tədris ilində birinci siniflərdə bu sistemin tətbiqinə başlanıb. Kurikulumun məqsədi şagirdlərə müstəqil həyatda lazım olan əməli biliklərin öyrədilməsi, onların məntiqi təfəkkürü inkişaf etdirmək, öz fikrini müstəqil bildirmək və öz hüququnu qorumaq bacarığını aşılamaqdır. Bu sistem dünyanın bir çox ölkəsində tətbiq olunur. Lakin ölkəmizdə valideynlərin böyük əksəriyyəti bu sistemdən narazılıq edir, onun heç bir işə yaramadığını bildirirlər.

Tanınmış təhsil eksperti Kamran Əsədov "Bakı-Xəbər"ə bildirdi ki, kurikulum sistemi dünyanın bir çox ölkəsində tətbiq edilir. "Məlum olduğu kimi, Azərbaycan ali təhsil müəssisələri 2005-ci ildən başlayaraq Boloniya sisteminə qoşulublar. Orta ümumtəhsil müəssisələrində isə 2008-ci ildən etibarən yeni təlim standartlarına, yəni kurikuluma keçildi. Əslində, hər iki sistem heç bir qeyri-adi təhsil standartı deyil. Bu, müasir dövrün tələblərindən irəli gəlir və onlardan imtina etməməliyik. Dünya yenilənir, müasirləşir və yeni tələblər meydana çıxır. Biz mütləq bununla ayaqlaşmalıyıq".



*"...onları təkmilləşdirmək vacibdir"*

K.Əsədov vurğuladı ki, müəllimlərin özləri istər kurikulum, istərsə də Boloniya sisteminin üsullarını mənimsəyə bilmirlər. "Ona görə ki, onlar yeniliyə cavab verəcək bilik və bacarığa malik deyillər. Biz artıq yaddaş məktəbindən təfəkkür məktəbinə keçirik. Buna əsasən orta məktəblərdə təhsil alan hər bir şagirdimiz əldə etdiyi bilikləri əzbərçi yaddaşla mənimsəməməlidir. Onlar bunu anlamalı, qavramalı və buradan tənqidi təfəkkür ortaya qoyub, fikirlərini ifadə etməlidirlər" - deyə ekspert qeyd etdi.

O da hesab edir ki, kurikulum, Boloniya sistemini ləğv etmək yox, onları təkmilləşdirmək lazımdır: "Söhbət kurikulum sistemindən gedirsə, bu sistem mütləq şəkildə təkmilləşdirilməlidir. Orta ümumtəhsil məktəbləri üçün standartlar yazılarkən daha çox akademik biliklər önə çıxarılıb. Halbuki, dövrün tələbləri tamamilə fərqli məsələlər istəyir".

Ekspert, həmçinin, qeyd edir ki, Azərbaycan ali təhsil müəssisələri dünya reytinqində yoxdur və yeni dünyanın çağırışlarına uyğunlaşa bilmirlər. "Hətta 2005-ci ildə qoşulduğumuz Boloniya sisteminin tələblərini belə özlüyündə dəyişdirdik və özümüzünküləşdirdik. Məsələn, Boloniya sistemində ali təhsil müəssisəsində mühazirə və bu kimi məsələlər olmasa belə, biz onları əlavə etdik. Həmçinin, həmin sistemdə məsafəli təhsil nəzərdə tutulsa da, bizdə hələ də bu cür təhsil yoxdur. Yəni biz, sadəcə, hər iki sistemə yalnız hüquqi baxımdan kağız üzərində keçmişik, amma praktiki olaraq biz yenə ənənəvi qaydada prosesi qururuq. Məsələn, orta təhsil müəssisələrində tələblər kurikulum tələblərinə uyğun qurulmalıdır, amma qurulmur. Ona görə qurula bilmir ki, kurikulumun tələbləri ilə dərs keçmək üçün müəllimin əməkhaqqı 1000-1500 manat olmalıdır. Çünki o, növbəti günün çap materiallarını, rəngli kağızlarını hazırlamalı, müəyyən summativlər, qiymətləndirməni tətbiq etməlidir. Bunun üçün isə onun həm kifayət qədər resursu, həm də vaxtı sərf olunur. Bunun qarşılığında aldığı əməkhaqqı isə yetərli deyil. Ona görə də kurikuluma daxil olan dərslərin hamısı formal xarakter daşıyır" - deyə o qeyd etdi.

K.Əsədov onu da vurğuladı ki, Azərbaycanda "kurikulum, Boloniya özünü doğrultmadı" deməyin özü mənfi haldır. "Bilirsiniz, "kurikulumu ləğv etmək və ya bu özünü doğrultmadı" kimi ifadələri düzgün hesab etmirəm. Hörmətli təhsil ağsaqqallarımızın bu günlərdə yayılan fikirlərinin geniş izahına ehtiyac var. Müasir dünya təhsili ilə ayaqlaşmaq adına zaman-zaman yeni və innovativ proqramlara müraciət etmək məcburiyyətindəyik. Kurikulum termini proqram sözünün sinonimi kimi qəbul edilib. Ən yaxşı halda, demək olar ki, bugünkü proqramlara yenidən baxmaq, günün tələbi ilə ayaqlaşmaq lazımdır. "Kurikulumu ləğv edək" deyərkən nəyi nəzərdə tuturuq? Mənə görə, proqram, qayət, doğrudur. Lakin icrasında hansısa problemlər var və bu da həll olunmalıdır. Bu başqa məsələ... Bu sistemin bu cür olmasının yeganə səbəbi məktəbdə keçirilən təfəkkür yönümlü tədrisin son nəticədə qiymətləndirilməsinin düzgün aparılmamasıdır. Həyati bacarıqlara, praktiki biliklərə söykənən dərsi keçən müəllimin şagirdi qəbul imtahanında, sadəcə, bilikdən imtahan verir. Bunu da görən müəllim valideynin tələbinə cavab vermək üçün dərslikləri kənara atıb ənənəvi bilik yüklü dərsə üz tutur. Bu da ona gətirir ki, kurikulum özünü doğrultmadı, bizə nə qazandırdı, nə aldı?

**Qazanılanlar:**

**- Təlimalma, təlimə getmə mədəniyyəti**

**- Təlimçilər**

**- Şagird mərkəzli təlim-tədris**

**- Müəllimin müasir tədrisdə yeni fasilitasiya rolunu anlaması**

**- Təlimdə və tədrisdə müxtəlif üsullar**

**- Əyaniliyin artması**

**İtirilənlər:**

**- Maddi vəsait**

**- Klassik müəllim özünəməxsusluğu**

**- Kurikulumun bəzi müəllimlər tərəfindən anlaşılmadığı səbəbilə standart müəllim yanaşması" - deyə K.Əsədov qeyd etdi.**

***İradə SARIYEVA***

№ 31 (4162) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

www.baki-xeber.com

20 FEVRAL 2020-ci il



## 47 il əvvəl ABŞ-da itən üzük Finlandiyada meşədə tapıldı

**ABŞ-ın Oreqon ştatında yaşayan 63 yaşlı Debra Makkenanın 47 il əvvəl itirdiyi üzük Finlandiyada meşəlik ərazidə tapılıb.**

"Milli.Az" xəbər verir ki, Debra adlı xanıma üzüyü 1973-cü ildə sevgilisi verib. Lakin xanım üzüyü itirib. Üzük Finlandiyanın cənub-qərbindəki Kaarina qəsəbəsində meşəlik ərazidə təsadüfən metal detektor vasitəsilə tapılıb. Üzüyün üzərindəki hərflər vasitəsilə onun ABŞ-da yaşayan şəxsə aid olduğu müəyyən edilib. Axtarışlardan sonra həmin şəxsin Debra adlı xanım olduğu üzə çıxıb.

## 21 yaşlı kanadalı qız virus təhlükəsinə baxmayaraq bir pişiyə görə Çini tərk etmədi

**Çinin Uhan şəhərində yaşayan Kanada vətəndaşı 21 yaşlı Kristina Şramko ölümcül virus təhlükəsinə baxmayaraq, vətəninə qayıtmaqdan imtina edib.**

"Milli.Az" xəbər verir ki, o, Kanadanın vətəndaşlarını təxliyə etmək üçün Uhan şəhərinə göndərdiyi təyyarəyə minməyib. Bildirilir ki, 21 yaşlı qız pişiyini tərk etməmək üçün belə addım atıb. Pişiklərin təyyarəyə götürülməsinin qadağan olduğunu bilən gənc, özü də laynerə minməkdən imtina edib. 8 ay əvvəl Uhan şəhərinə gələn qız bildirib ki, o, çətin vəziyyətə baxmayaraq, pişiyinə görə Uhan şəhərində qalmağa üstünlük verib. Çox nadir hallarda yalnız ərzaq almaq üçün evi tərk edən xanım, gündəlik yaşadıqlarını yutub kanalı vasitəsilə paylaşır. Gəncin bu davranışı qohumları tərəfindən birmənalı qarşılanmayıb.



## Ən çox piyada gəzən ölkə sakinləri - Honkonq liderdir...

**Alimlər ən çox piyada gəzən ölkə sakinlərini açıqlayıb. "Qafqazinfo" xəbər verir ki, tədqiqat zamanı mütəxəssislər 111 ölkədən olan 717 min 527 insanın pedometr göstəricilərini analiz edib.**

Birinci yerdə Honkonq qərarlaşıb. Burada sakinlər gündə 6880 addım atır. Növbəti yerlərdə Çin (6189), Ukrayna (6170) və Yaponiya (6010) yer alıb. Ən çox "avtomobilləşdirilmiş" dövlətlərdə - ABŞ və Kanadada insanlar yetərincə piyada gəzir və gündə müvafiq olaraq 4819 və 4774 addım atır. Ən aşağı göstəricilər Səudiyyə Ərəbistanı və İndoneziyadadır (gündə 3513 addım).

## Misir mumiyalarının qızıl maskaları ABŞ-da sərgiyə çıxarıldı

**Yunan-Roma dövrünə aid (eramızdan əvvəl 300-200-cü illər) Qədim Misir mumiyaları və qızıl maskalardan ibarət sərgi Birləşmiş Ştatların Buffalo Elm Muzeyində açılıb.**

"AZƏRTAC" bildirir ki, "Misirin qızıl mumiyaları" adlı sərgi iyunun 21-dək davam edəcək. Qeyd olunub ki, sərginin rəsmi saytında mumiyalar, tabutlar, qəzəl maskalar və zinət əşyalarından ibarət 100 artifaktın sərgiləndiyi bildirilir. Eksponatlara, xüsusən qızıl maskalara ecazkar rəng əlavə etmək üçün xüsusi işıqlandırma sistemi də quraşdırılıb. Buffalo Elm Muzeyinin xarici əlaqələr üzrə direktoru Emi Biber Kollson bildirib ki, bütöv bir sivilizasiyanın yadigarı olan bu unikal eksponatlar böyük marağa səbəb olub. Qədim misirlilərin ölüm və ondan sonrakı həyat haqqında təsəvvürləri alimlər üçün xüsusilə mühümdür. Məhz bu səbəbdən Buffalo Universiteti sərgi ilə bağlı xüsusi fəallıq nümayiş etdirir. "Misirin qızıl mumiyaları" adlı sərgi bundan əvvəl Mançester Muzeyində təşkil edilib.






**Qoç** - Gün çoxsaylı əlaqələr, görüş, zənglər vəd edir. Bütün bunlar sizi yoraraq tənhalıq, sakitlik aramağa vadar edə bilər. Vacib saydığınız işlərlə məşğul olun, faydalı hesab etdiyiniz layihəni başa vurmağa çalışın.


**Buğa** - Çoxdan can atdığınız nəticənin konkret və hətta formal şəkildə əldə olunması üçün əlverişli gündür. Şəxsi həyatda münasibətlər bir qədər gəriləcək, amma ciddi təlaş üçün heç bir əsas yoxdur.


**Əkizlər** - İmkanlarınızdan xaricə çıxın, məqsədə çatın. Hüquqi məsələləri həll etmək, danışıqlar aparmaq, toplantı keçirmək olar. Maraq dairənizdə olan işləri axşam saatlarında da davam etdirə bilərsiniz.


**Xərçəng** - İş yerindəki fəaliyyətdə qayda yaradılması əhvalınıza müsbət təsir edə bilər. Şəxsi həyatda sizdən səmimilik tələb edəcəklər. Yaxın bildiyiniz insanı dinləyin, ona məsləhət verin, qayğısına qalın.


**Şir** - Bu gün aktiv olun, yaşamın tempindən geri qalmayın. Yeni işlərə başlayın, sizi maraqlandıran ideya və layihələri həyata keçirməyə çalışın. İşə laqeyd, səthi münasibət yolverilməzdir.


**Qız** - Yaradıcı yanaşmanın punktuallıq və səbrlə müşayiət olunması gərəkən işlərdə uğur əldə edə bilərsiniz. Çətin işi həll etməyə başlayın. Mürəkkəb, az adamın bacardığı işi görsəniz, səmərəsi də əhəmiyyətli olar.


**Tərəzi** - Ünsiyyət dairəsini məhdudlaşdırmayın, görüşə dəvətə mənfi cavab verməyin, danışıqlar aparın. İşi tərəfdaş və həmkarlarınızla birlikdə görün, axşam saatlarını da dostlarla keçirin.


**Əqrəb** - Bu gün yağlı yeməyin, bir qədər pəhriz saxlayın. Qız bürcü, Ay və Marsın münasibətləri sağlam həyat tərzi, fiziki iş, piyada gəzinti tələb edir. Xroniki xəstəlik özünü bürüzə verərsə, mütləq həkimə müraciət edin.


**Oxatan** - Ailədə, evdə qayda yaratmaq üçün vaxt tapın. İndi istənilən sakit, rəvan, "təmizləyici" iş sizə daxili stabillik hissi ilə güc verə bilər. Hisslərinizdə batini sakitlik, qarşılıqlı anlaşma və stabilliyə can atın.


**Oğlaq** - Bu gün hər şey əvvəlki məcrada olacaq. Heç bir ciddi dəyişikliyə ehtiyac yoxdur. Sadəcə, işlərə önəmli təsir edən təfərrüatlar və nüansları nəzarətdə saxlayın. İnformasiya axtarışına daha çox diqqət və vaxt ayırın.


**Dolça** - Gün sakit başlayacaq. Tələsməyin, cari məsələlərlə təmkinlə məşğul olun. Fəaliyyətinizə əlavə edə biləcəyiniz məqamlar barədə düşünmək zamanıdır. Təkliflər, xəbər və xidmət mübadiləsi gələcəklə bağlı yeni perspektivlər yarada bilər.


**Balıqlar** - Bu gün evdə və işdə qayda yaradın. Çoxsaylı kiçik işlər həllini gözləyir. Gələn informasiyaları yerbəyer edin, ehtiyac yaranarsa, təmirə əl atın. Alış-verişdə çox pul xərcləməyin.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Keçmişə qaytaran ekransız telefon...



**Disk mexanizmi ilə işləyən telefon təqdim olunub. "Ted.az" bildirir ki, ABŞ-da köhnə telefondan yeni qacet düzəldilib.**

Bu qəribə telefon ABŞ-dan olan mühəndis Castin Haupt tərəfindən icad edilib. Mühəndis disk mexanizmi ilə işləyən köhnə telefona ana plata və antenanı əlavə edərək tam işləyən cib telefonunu yaradıb. Cihazın adi telefonlardan fərqli olaraq, rəngli ekran və idarəetmə menyusu yoxdur. Zəng edəcəyiniz nömrəni siferblatda yığmalı olacaqsınız. Gələn SMS-lər üçün yalnız son mesajı göstərən kiçik bir ekran yerləşdirilib. Telefon vasitəsilə mesajlara cavab vermək mümkün deyil, yalnız zəng etmək olar.

*Hazırladı: Ramil QULİYEV*

## Elan

Xəlilova (Qədimova) Sevinc Yunis qızının adına, Vişnyovka I bağ massivində yerləşən N1621 b saylı bağa verilmiş N11 order itdiyi üçün etibarsız sayılır.

Sadəddinova Aysel Mübariz qızına Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Nəsirli Xanım Şəmsi qızına Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Quliyeva Minayə Səməd qızının adına, Yasamal rayonu, Ə.Quliyev küçəsi 51, mənzil 7 ünvanının çıxarışı (kupça) itdiyi üçün etibarsız sayılır.

Baş redaktor: Aydın Quliyev

Baş redaktorun müavini: Tahir Tağıyev

Redaksiyanın ünvanı: Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə
Tel-faks: 510-87-40; 510-87-38; 510-87-39

e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846
Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa).
«BZ»-də çap olunur.

Sifariş: №2514 Tiraj: 3050

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.